31 yanvar 2024 №8 (2073) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

# Bir kərə yüksələn bayraq yenə başımızın üstündədir

## Yox yerdə dövlət qurub adını tarixə yazanları minnətdarlıqla yad edirik

31 yanvar Azərbaycanın milli istiqlal tarixinin böyük şəxsiyyəti, ilk Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümüdür. Görkəmli ictimai-siyasi xadimin yubileyi Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü il dekabrın 30-da imzaladığı sərəncamla geniş şəkildə qeyd olunur, silsilə tədbirlər ilboyu davam edəcək.

Prezidentin sərəncamında da vurğulandığı kimi, Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik ideallarının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətdir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşadı və mübarizə apardı.

Azərbaycanın istiqlal və istiqbal düşüncəli aydınlarının xalqımıza bəxş etdikləri Cümhuriyyət bu gün təkcə 10 milyonluq vətəndaşlarımıza deyil, bütün dünyadakı soydaşlarımıza qürur verən şərəfli tarix salnaməsidir. Yox yerdə bir dövlət bina edib tarixə adını yazdıranların hamısını hər zaman minnətdarlıqla yad edirik.

Cümhuriyyətimiz o dövrün reallıqları şəraitində cəmi 23 ay ömür sürsə də, tarixımizdə silinməz izlər qoydu. 70 illik sovet ideologiyası onların üstünü örtsə də...

*İyirmi səkkizində idi Mayısın,*
*Azərbaycan istiqlalə ermişdi...*

Məhəmməd Əmin Rəsulzadə Cümhuriyyətin süqutundan illər sonra nisgilini ifadə edərkən gələcəyə ümidini də itirməmişdi. 1918-ci ildə səpilən istiqlal toxumunun bir gün təkrar cücərəcəyinə inanırdı...

*Milli fikir toxumları səpildi,*
*İslatdı torpağı axan qızıl qan.*
*Bu əkindən yarınki bir baharda*
*Əlbət bitər bir yeni Azərbaycan.*

O deyirdi: "Ey gənclik! Sənin öhdəndə böyük bir vəzifə var! Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı və onu min müşkülatla yüksəldərək dedi ki, bir kərə yüksələn bayraq bir daha enməz! Əlbəttə, sən onun bu ümidini qırmayacaq... bu bayrağı bir daha o bina üzərinə dikəcək, bu yolda ya qazi, ya şəhid olacaqsan!".

İllər ötdü, nəsillər dəyişdi. XX əsrin sonuna doğru Azərbaycan müstəqilliyini bərpa etdi.

"Biz Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin varisiyik. Bu müstəqillik Azərbaycan xalqının istiqlal arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən ucaldılmış böyük bir abidədir" – müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev Cümhuriyyətin tariximizdəki yerinə qiymətı bu sözlərlə vermişdi.

Cümhuriyyətin varisi olan Azərbaycan Respublikasının müstəqillik yolu çətin, məşəqqətli oldu, torpaqlarımız işğal edildi, ərazimizin beşdə birində suverenliyimizi itirdik. Amma dövlətimiz sarsılmadı, tarixə inad ildən-ilə gücləndi və ötən əsrdən Rəsulzadənin də xitab etdiyi gənclik, qəhrəman Azərbaycan oğulları onun uğrunda qazi də oldular, şəhid də...

"Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər" – Prezident, Ali Baş Komandan İlham Əliyevin bu sözləri Ordumuzun rəşadəti, şəhid və qazilərimizin canı-qanı bahasına qazanılan Zəfərin təntənəsində indi müstəsna tarixi anlam kəsb edir...

Azərbaycanı yaşatmaq, şan-şöhrətini yüksəltmək, qüdrətini daha da artırmaq onun istiqlalının ilk təməlini atanların da ruhunu şad etmək deməkdir.



Rəsulzadənin sevimli şairi Əmin Abid Gültəkindən ömrünün sonunadək fəxrlə qiraət etdiyi bu misralardakı kimi:

*Sən bizimsən, bizimsən, durduqca bədəndə can,*
*Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!*

Ruhu şad olsun! Bir kərə yüksələn bayraq yenə başımızın üstündədir...

# Bölgələrdəki teatr-tamaşa və konsert müəssisələri günün tələblərinə cavab verirmi?

Yanvarın 27-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə regionlardakı teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə həsr olunan müşavirə keçirilib.

Müşavirədə nazirliyin məsul əməkdaşları, regional mədəniyyət idarələrinin rəisləri, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran, Qazax, Şəki, Ağdam, Füzuli, Qax, Qusar və Salyandan teatr və konsert müəssisələrinin rəhbərləri iştirak ediblər.

Nazir çıxış edərək bildirib ki, Prezident İlham Əliyev tərəfindən paytaxtla yanaşı, bölgələrimizin də inkişafı diqqətdə saxlanılır. Ölkə başçısının müvafiq sərəncamları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları üzrə bölgələrdə mədəniyyət təsisatlarının təkmilləşdirilməsi və inkişafı, xüsusilə region teatrlarının binalarının təmiri və yenidən qurulması, vətəndaşların mədəni istirahətinin daha yaxşı təmin olunması ilə bağlı mütəmadi işlər görülür.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu da regionlarda mədəni quruculuğa böyük töhfələr verir, fondun dəstəyi və təşkilatçılığı ilə mədəniyyət sahəsinin inkişafına xidmət edən silsilə layihələr həyata keçirilir.

Qeyd edilib ki, teatr-tamaşa müəssisələrində yaradıcılıq potensialının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Repertuar tərtib edilərkən nazirlik tərəfindən yaradılmış "Teatr-tamaşa müəssisələrinin illik repertuarlarının və dövlət sifarişi əsasında hazırlanan tamaşaların məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurası"nın rəyləri nəzərə alınmalıdır.

davamı səh. 4-də

# "Gəncliyin səsi" festivalı keçiriləcək




1-3 fevral tarixlərində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gəncləri Gününə (2 fevral) həsr olunmuş 10-cu "Gəncliyin səsi" festivalı keçiriləcək.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldur. Hər bir sahədə gənclərin iştirakı, maraqlı ideyaları dəstəklənir, onların milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı, bədii-estetik zövqünün formalaşması üçün dövlət tərəfindən zəruri tədbirlər görülür.

Festivalın keçirilməsində məqsəd gənclərin yaradıcı sahəyə olan marağının artırılması, onların istedadının üzə çıxarılmasıdır. Festival çərçivəsində Bakıda və bölgələrdə (Gəncə, Qax, Salyan) konsert, kukla tamaşası, yaradıcı yarmarka, tematik sərgilər keçiriləcək.

Builki festivalın prioritet istiqamətləri yaradıcı tələbələrin bu layihəyə cəlb edilməsidir. Mədəniyyət və İncəsənət Universiteti, Bakı Musiqi Akademiyası, Milli Konservatoriya, UNEC, Dövlət Rəssamlıq Akademiyası və digər tədris ocaqlarında silsilə tədbirlər olacaq.

2 fevral tarixində Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərdə yaşı 14-dən 29-dək olan şəxslər üçün "açıq qapı" elan ediləcək.

# Dahi şairin 530 illik yubileyinə töhfə

## Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin almanca nəşrinin təqdimatı

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev yanvarın 25-də dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) 530 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. İl ərzində yubileyə həsr olunan silsilə tədbir və layihələr həyata keçiriləcək. Bununla bağlı Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi və AMEA ilə birlikdə tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.




Mütəfəkkir şairin ədəbi irsi ilə bağlı ən sanballı əsərlərdən biri – görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı ötən il alman dilində nəşr olunub. Kitab tanınmış şərqşünas-alim, Azərbaycan klassik ədəbiyyatının tədqiqatçısı, Giesen Universitetinin dosenti Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə olunub.

Almaniyanın "Erqon-Nomos" nəşriyyatında "Bibliotheca Academica" – şərqşünaslıq sahəsində seçilmiş nəşrlər seriyasından çap olunan kitabla bağlı ötən ilin noyabrında Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində təqdimat olub. Kitabı dahi şairin 530 illik yubileyinə töhfə də saymaq olar.

Yanvarın 26-da Azərbaycan Milli Kitabxanasında Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin almanca nəşrinin təqdimatı keçirilib.

davamı səh. 3-də

# "Vətənim mənim" – qobelen ustasının sərgisi

Yanvarın 30-da Milli Xalça Muzeyində Əməkdar rəssam, qobelen ustası Adil Şıxəliyevin "Vətənim mənim" adlı fərdi sərgisinin açılışı keçirildi.




Açılış mərasimində çıxış edən muzeyin direktoru vəzifəsini müvəqqəti icra edən Mira Məmmədxanova bildirdi ki, sərgi Adil Şıxəliyevin yaradıcılığının 50 illiyinə həsr olunub. Sərgidə müəllifin 30-dək qobeleni təqdim edilir. Burada Adil Şıxəliyevin keçmişdə və müasir dövrdə ölkəmizin həyatında baş vermiş mühüm tarixi hadisələrə həsr olunan əsərləri, o cümlədən Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə ithaf etdiyi portret sərgilənir. Nümayiş olunan əsərlər sırasında "Zəfər yolu", "Şuşada toy" və digər əsərlər rəssamın yaradıcılıq rəngarəngliyini əks etdirir. Müəllifin təbii boyaqlarla boyadığı iplər və rəngləri əldə etdiyi bitkilər də sərgidə yer alır.

Sərginin kuratoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova diqqətə çatdırdı ki, ömrünü sənətə həsr edən Adil Şıxəliyevin yaradıcılıq nümunələri Milli Xalça Muzeyinin kolleksiyasında saxlanılır.

Qeyd olundu ki, sərgi çərçivəsində ustad dərsləri, mühazirələr və rəssamın iş prosesini əks etdirən film də nümayiş olunacaq. Ekspozisiyada yer alan əsərlər rəssamın vətəninə böyük sevgisini nümayiş etdirir.

Azərbaycan Rəssamlar İttifaqının (ARİ) sədri Xalq rəssamı Fərhad Xəlilov Adil Şıxəliyevi yaradıcılığının 50 illiyi münasibətilə təbrik etdi, cansağlığı və yaradıcılıq uğurları arzuladı.

İttifaqın Dekorativ-tətbiqi sənət bölməsinin rəhbəri Xalq rəssamı Aydın Rəcəbov müəllifin ARİ-də təşkil edilən sərgilərdə mütəmadi iştirakını, vətənpərvərlik mövzulu əsərlərinin üstünlük təşkil etdiyini dedi.

Çıxışlardan sonra Adil Şıxəliyev sərginin təşkilatçılarına və qonaqlara təşəkkür etdi. Daha sonra qonaqlar sərgi ilə tanış oldular.

"Vətənim mənim" sərgisi martın 6-dək davam edəcək.

Qeyd edək ki, Adil Şıxəliyev 1946-cı ildə Qubada anadan olub. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. Qobelen sənətinə vurğunluğu təhsil illərindən sonra başlayıb. Sənətin sirlərini rəssamlar Sabir Şıxlı, Svetlana İsmayılova və başqalarından öyrənib. İlk fərdi sərgisi 2016-cı ildə, 70 illik yubileyində reallaşıb.



# Ağ-qara fotolarla tarixə səyahət

XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycana səyahət etmiş rus fotoqraf Dmitri Yermakovun (1846–1916) çəkdiyi şəkillərdən ibarət kitab-albom nəşr olunub. Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gəlmiş "Odlar yurduna səyahət" kitabındakı fotolar 1880-ci illərin sonundan XX əsrin əvvəlinədək olan dövrü əhatə edir. Gürcüstan Milli Muzeyinin Yermakov fondunda saxlanılan bu fotoşəkillərin əksəriyyəti indiyədək dərc olunmayıb.

Bakı Kitab Mərkəzində "Odlar yurduna səyahət" kitab-albomunun təqdimatı keçirilib.

Nəşrin elmi redaktoru, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov qeyd edib ki, Dmitri Yermakovun fotoşəkilləri unikaldır: "Birincisi, onlar tarixi mənbə kimi qiymətlidir. İkincisi, bu fotolar bədii və sənədli film çəkənlər üçün əvəzolunmaz materialdır. Onların vasitəsilə həmin dövr haqqında bədii əsərlər də yazmaq olar. Çünki bu mənbələr bilinməyən hadisələr barədə əyani vəsaitdir. Daha bir məqamı qeyd etmək yerinə düşər. Yermakov peşəkar hərbi topoqraf və xəritəçəkən olub və ona görə də işığların fonunda, hava şəraiti, günün müəyyən vaxtı və digər amillərdən asılı olaraq çəkiliş rakursunu müəyyən etmək üçün məkanı çox gözəl bilib. Bu səbəbdən fotoşəkillər çox keyfiyyətlidir".

davamı səh. 7-də




Görkəmli balerina haqqında filmin təqdimatı

səh. 2



İndoneziyanın incəsənət ustaları Şəkidə

səh. 4



"Qaya": əfsanəni yaşadanlar

səh.5

# Qardaşlıq əlaqələrimiz "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri, Türkiyənin sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Hulusi Akar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin, Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyi deyən Hulusi Akar bunun bir örnək olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətləri ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rolu var.

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirib.



Söhbət zamanı 2023-cü il sentyabrın 19-20-də Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulanıb.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını deyib, Ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olunub, bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırılıb. 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığa bağlı fikir mübadiləsi aparılıb, hər iki ölkənin silahlı qüvvələri tərəfindən birgə keçirilən hərbi təlimlərin əhəmiyyəti xüsusilə qeyd edilib.

Sonda Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

# Dənizkənarı Bulvar İdarəsinə yeni təyinat

Prezident İlham Əliyevin yanvarın 29-da imzaladığı sərəncamla İlqar Əziz oğlu Mustafayev Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilib. Dövlət başçısının digər sərəncamı ilə bu vəzifəyə Xanlar Adil oğlu Ağalarov təyin olunub.

Xanlar Ağalarov bu təyinatadək Mədəniyyət Nazirliyinin Aparat rəhbəri olub. Bu vəzifəyə 2023-cü ilin martında təyin edilmişdi. Daha öncə Prezident Administrasiyasında Strateji araşdırma və planlaşdırma, Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbələrində müxtəlif vəzifələrdə çalışıb.

Yanvarın 30-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri vəzifəsinə yeni təyin olunmuş Xanlar Ağalarovu kollektivə təqdim edib.

# Görkəmli balerina haqqında filmin təqdimatı

Görkəmli balerina, pedaqoq, SSRİ Xalq artisti, professor Leyla Vəkilovanın (1927–1999) ömür və sənət yoluna həsr olunmuş "Vəkilova" adlı sənədli film çəkilib.



Yanvarın 29-da Nizami Kino Mərkəzində ekran əsərinin təqdimat mərasimi keçirilib.

Tədbirdə Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) məsul əməkdaşları, kino xadimləri, digər qonaqlar iştirak ediblər.

ARKA-nın baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu rəqs sənətimizin görkəmli nümayəndəsi haqqında filmin əhəmiyyətindən danışıb. O digər sənət fədailəri haqqında da filmlərin lentə alınacağını diqqətə çatdırıb.

Filmin ssenari müəllifi və rejissoru tanınmış balet ustası, Əməkdar artist Samir Səmədov, ekran əsərinin prodüseri isə Gülnarə Lütfəliqızıdır.

İki ay ərzində ərsəyə gələn ekran işi Azərbaycan dilindən savayı ingilis və rus dillərində də səsləndirilib. Filmdə Leyla Vəkilovaya aid arxiv materiallarından istifadə olunub.

Məşhur balerina, Azərbaycanın və SSRİ-nin Xalq artisti Leyla Məhəd qızı Vəkilova 29 yanvar 1927-ci ildə Bakıda anadan olub. O, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında balet truppasının aparıcı solisti olub. A.Adanın "Jizel", R.Qlierin "Qırmızı lalə", P.Çaykovskinin "Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", L.Minkusun "Don Kixot", B.Zeydmanın "Qızıl açar", B.Asafyevin "Bağçasaray fontanı", Ə.Bədəlbəylinin "Qız qalası", Q.Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", S.Hacıbəyovun "Gülşən" və digər baletlərdə əsas partiyaları ifa edib. Bir müddət Azərbaycan Dövlət Rəqs Ansamblına rəhbərlik edib. Həmçinin Bakı Xoreoqrafiya Məktəbinin (indiki BXA) bədii rəhbəri olub.

Azərbaycan baletinin ulduzlarından olan sənətkar 1999-cu il fevralın 20-də vəfat edib.

**Nurəddin**

# Ulu öndər Axıska türklərinə xüsusi qayğı ilə yanaşıb

## Qazaxıstanda çap edilən kitabın təqdimatı keçirilib

Dünya Axıska Türkləri Birliyi (DATÜB), Qazaxıstanda yaşayan azərbaycanlıların Ata Yurd-Nomand Respublika Birliyi və Azərbaycan Respublikası Axıska Türklərinin "Vətən" İctimai Birliyinin dəstəyi ilə "Heydər Əliyev – 100" kitabı çap olunub.

Yanvarın 29-da Beynəlxalq Muğam Mərkəzində Qazaxıstanda çap olunmuş kitabın təqdimat mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub. Daha sonra qonaqlar Qazaxıstanın Almatı şəhərində yaşayan Axıska türkləri ilə bağlı videoçarx izləyiblər.

Xalq artisti Rasim Balayev çıxış edərək Ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Ulu öndərin mədəniyyətə, mədəni irsə və Azərbaycanda yaşayan azsaylı xalqlara diqqətindən söz açıb.

Təqdimat mərasimində DATÜB-ün rəhbəri Ziyəddin Kassanov, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, AMEA-nın müxbir üzvü Misir Mərdanov və digər qonaqlar çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Axıska türklərini Azərbaycan xalqı ilə ümumi etnik, tarixi köklər və coğrafi məkana mənsubluq qırılmaz tellərlə birləşdirir. Buna görə də ilk dəfə Axıska türklərinə qucaq açan Azərbaycan olub.

Z.Kassanov deyib ki, Heydər Əliyevin rəhbərliyi dövründə Axıska türklərinə diqqət və qayğı daha da artıb. Ulu öndərin göstərişi ilə Axıska türkü olan gənclərin Azərbaycanda ali təhsil alması üçün müsabiqədənkənar qəbul həyata keçirilib. Bunun nəticəsidir ki, bu gün




dünyanın doqquz ölkəsinə yayılmış Axıska türklərinin əsas ali təhsilli hissəsi Azərbaycanda yaşayıb fəaliyyət göstərir.

Qeyd edək ki, Qazaxıstanda yaşayan Axıska türkləri tərəfindən yazılan "Heydər Əliyev – 100" kitabında Ulu öndərin həyat və fəaliyyəti öz əksini tapıb.

**Lalə**

# Vətənimizin igid gəncləri

## Gənclər Gününə həsr edilmiş tədbir



Yanvarın 30-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Vətənimizin igid gəncləri" silsiləsindən görüş keçirilib. 2 fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbirin qonaqları 44 günlük Vətən müharibəsinin qaziləri – beynəlxalq müsabiqələr laureatı, tarzən Fərid Atazadə və xanəndə Məbud Əhmədov olublar.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözü ilə tədbiri açıb.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin böyük elmi işçisi Əzirə Abdullayeva tədbirin qonaqları haqqında məlumat verib.

Fərid Atazadə və Məbud Əhmədov keçdikləri döyüş yolu və sənət uğurlarından danışıblar. Hər iki ifaçı musiqi nömrələri ilə də çıxış ediblər.

Tədbirdə gənc musiqiçilərin ifalarının yer aldığı videogörüntülər, döyüş şəkillərindən ibarət slayd nümayiş olunub.

**Savalan**

# AMEA-da Rəsulzadənin yubileyi ilə bağlı tədbir

Yanvarın 29-da AMEA-da Rəyasət Heyəti, Humanitar Elmlər Bölməsi və İctimai Elmlər Bölməsinin birgə təşkilatçılığı ilə "Milli istiqlalın görkəmli nümayəndəsi Məhəmməd Əmin Rəsulzadə" mövzusunda elmi konfrans keçirilib.

AMEA-dan bildirilib ki, tədbir Azərbaycan Xalq Cümhuriyyətinin qurucu liderlərindən Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr edilib.

Konfransda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərin zəngin irsinin, onların həyat və yaradıcılıqlarının dərindən öyrənilməsi, gələcək nəsillərə ötürülməsinin ölkəmizdə strateji xətt kimi müəyyənləşdirildiyini söyləyib.

Rəsulzadənin 140 illiyi haqqında Prezident İlham Əliyevin sərəncamı ilə bağlı AMEA-da tədbirlər planının hazırlandığını bildirən akademik qeyd edib ki, Rəsulzadənin müstəqil Azərbaycan dövlətinin qurulmasında xidmətləri ilə bərabər, ədəbi yaradıcılığı da diqqətəlayiqdir. Onun zəngin qaynaqlar əsasında yazdığı "Azərbaycan şairi Nizami" adlı monoqrafiyası klassik ədəbiyyatımız haqqında sanballı tədqiqat işi olmaqla yanaşı, dünya nizamişünaslığının da mühüm nailiyyətlərindəndir. Rəsulzadənin "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri" məqalələr toplusu tarixi əhəmiyyətə malik qiymətli əsərdir.

Mərhum professor Şirməmməd Hüseynovun Rəsulzadə irsinin öyrənilməsində və təbliğindəki xidmətlərini diqqətə çatdıran AMEA-nın prezidenti görkəmli ictimai-siyasi xadimin zəngin fəaliyyətinin yenidən tədqiqata cəlb etməyin, onun irsini daha dərindən öyrənməyin önəmini vurğulayıb.

Sonra Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mühacirət ədəbiyyatı şöbəsinin baş elmi işçisi Abid Tahirlinin "Məhəmməd Əmin Rəsulzadənin publisistikasında Azərbaycan Xalq Cümhuriyyəti qurucuları" mövzusunda məruzəsi dinlənilib.

Professor Nəsiman Yaqublu "Məhəmməd Əmin Rəsulzadənin mühacirət mətbuatı ilə bağlı fəaliyyəti", dosent Mübariz Ağalarlı "Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşündə etnik tarix və milli kimlik məsələləri", dosent Faiq Ələkbərli "Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan ideyasının fəlsəfi mahiyyəti", Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi Əfşan Səfiyeva "Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi fəaliyyətinin İran mərhələsi" mövzularında məruzələrlə çıxış ediblər.

# Tariximizdə, mənəviyyatımızda silinməz iz

Yanvarın 30-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Məhəmməd Əmin Rəsulzadə tariximizdə, ədəbiyyatımızda, mənəviyyatımızda" mövzusunda elmi konfrans keçirilib.

Muzeyin direktoru akademik Rafael Hüseynov "Milli düşüncəmizin Məhəmməd Əmin Rəsulzadə səhifəsi" mövzusunda çıxış edib. O, Rəsulzadənin həyat və fəaliyyətindən, istiqlal, azadlıq uğrunda mübarizəsindən, Azərbaycanın ictimai fikir tarixində yeri və rolundan söz açıb. Akademik XIX əsrin sonu – XX yüzilliyin əvvəllərində Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlər yetişdirdiyini və həmin insanların gələcək nəsillərə örnək olacaq mübarizə yolunun hər zaman yaddaşlarda yaşayacağını bildirib: "Məhəmməd Əmin Rəsulzadə 1884-cü ildə anadan olub. Dahi bəstəkarlarımız Üzeyir Hacıbəyli, Müslüm Maqomayev 1885-ci ildə dünyaya göz açıb. Azərbaycan Cümhuriyyət kimi bir sərvəti qazanması uğrunda mübarizə aparan insanların əksəriyyəti təxminən elə həmin dövrdə anadan olub. XX əsrin əvvəllərində onlar gənc idilər, ancaq müdrik düşüncələri ilə milləti daha güclü olmağa səfərbər ediblər".



R.Hüseynov diqqətə çatdırıb ki, 1918-ci ilin mayında qurulan Cümhuriyyətin hökuməti sentyabr ayında Gəncədən Bakıya köçdü. Milli Hökumətimizin üzvləri o zamanlar "Metropol" adlanan mehmanxanada, indiki Ədəbiyyat Muzeyinin yerləşdiyi binada həm yaşayır, həm də işləyirdilər. Həmin insanların şərəfinə "İstiqlal" adlandırılan bu zalda Azərbaycanın gələcəyi üçün vacib qərarlar verilib, müzakirələr aparılıb. Azərbaycan Hökumətinin ilk çağırışları da buradan eşidilib. Ona görə də bu binada M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi tarixin məntiqidir.

Akademik 1918-ci il mayın 28-də Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsini xalqımızın tarixində ən bəxtiyar, mühüm hadisə adlandırıb. Bildirib ki, gənclik illərindən M.Ə.Rəsulzadənin ən böyük amalı insanlara hüriyyət, millətlərə istiqlal idi. Ömrünün sonunadək daim Azərbaycan istiqlalının, Azərbaycan istiqlal düşüncəsinin sönməsinə imkan verməyənlərdən oldu.

Tədbirdə Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadə atası Azər Rəsulzadə ilə bağlı xatirələrini bölüşüb.

Ədəbiyyat Muzeyinin tərtibatçı-rəssamı Leyla Məmmədovanın təqdimatında muzeyin yeni layihəsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Leyla Məmmədova Məhəmməd Əmin Rəsulzadənin yeni heykəlinin hazırlanması üçün müxtəlif eskizlərini təqdim edib və onlar haqqında ətraflı məlumat verib.

Ədəbiyyat Muzeyinin elmi işçisi Nəcibə Bağırzadə "Məhəmməd Əmin Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası", filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərova "Nizami Muzeyinin ekspozisiyasında Cümhuriyyət irsi", filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayeva "Məhəmməd Əmin Rəsulzadənin repressiya olunmuş doğmaları", dosent Göyərçin Mustafayeva "Tatar tarixçisi Bulat Sultanbekovun Məhəmməd Əmin Rəsulzadə haqqında araşdırması" mövzularında məruzələrlə çıxış ediblər.

***

Milli Azərbaycan Tarixi Muzeyində də Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi münasibətilə tədbir təşkil edilib.

Alim və mütəxəssislərin, ali məktəb tələbələrinin iştirak etdikləri tədbirdə muzeyin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin aparıcı elmi işçilərinin "Məhəmməd Əmin Rəsulzadə Lənkəranda", "Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında milli və dini məsələlərə dair" mövzularında məruzələri dinlənilib.

# "Enməz demisən bu bayraq, enməyəcəkdir!"

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr edilmiş "Enməz demisən bu bayraq, enməyəcəkdir" adlı tədbir keçirilib.

ATMU-nun rektoru İlham Mədətov giriş sözündə tədbirin Rəsulzadənin 140 illiyi haqqında ölkə başçısının müvafiq sərəncamına əsasən təşkil olunduğunu söyləyib.

Professor Məhərrəm Zülfüqarlı çıxış edərək Rəsulzadənin ictimai-siyasi, elmi fəaliyyətindən söz açıb. Vurğulanıb ki, Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif illərdə yazdığı "Əsrimizin Siyavuşu", "Azərbaycan Xalq Cümhuriyyəti", "Çağdaş Azərbaycan tarixi" və digər əsərlərində, o cümlədən mühacirət həyatında son nəfəsinə qədər Azərbaycanın istiqlalına ürəkdən bağlı olub.

# Dahi şairin 530 illik yubileyinə töhfə

## Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin almanca nəşrinin təqdimatı

əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkil etdiyi mərasimdə ADA Universitetinin rektoru professor Hafiz Paşayev, kitabın tərcüməçisi, şərqşünas-alim Mixael Raynhard Hess, mədəniyyət naziri Adil Kərimli, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatı tarixində həm yazıçı, həm də ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi özünəməxsus yer tutduğunu söyləyib. Qeyd edib ki, Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı tədqiqat əsərinə görə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb, 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında Mir Cəlal Paşayevin böyük alim, pedaqoq, yazıçı kimi zəngin və çoxcəhətli fəaliyyətindən danışıb, Füzuli yaradıcılığının əsərdəki geniş təhlili haqqında bəhs edib.





AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva təqdimatı keçirilən əsərin Füzuli irsinin öyrənilməsində mühüm mənbə olduğunu söyləyib.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli elm yolunda ona işıq tutan, yol göstərən müəllimi Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin əhəmiyyətinə toxunaraq XX əsr dünya füzulişünaslığında Mir Cəlal müəllimin öz kürsüsü, öz yeri olduğunu bildirib.

AMEA-nın müxbir üzvü, BDU-nun professoru Təhsin Mütəllimov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev də kitabın məziyyətlərindən bəhs ediblər.

Xarici İşlər Nazirliyinin idarə rəisi Rizvan Nəbiyev kitabın Almaniya və digər ölkələrdə yayıldığını, bir çox universitet kitabxanalarının kataloqlarına daxil edildiyini, biblioqrafiyalara salındığını söyləyib, tərcüməçi-tədqiqatçıya Azərbaycan mədəniyyəti və ədəbiyyatının təbliğindəki xidmətlərinə görə təşəkkürünü bildirib.

Kitabın tərcüməçisi, şərqşünas-alim Mixael Raynhard Hess nəşrə yazdığı "Giriş sözü"ndə həm Füzuli, həm də Mir Cəlal dövrünün ədəbi və tarixi-siyasi mühitinin elmi-tənqidi təhlilindən danışaraq Füzuli dühasına Mir Cəlal Paşayevin bu əsəri vasitəsilə daha rahat daxil ola bildiyimizi vurğulayıb. Füzuli və Mir Cəlal yaradıcılığının əksi olan bu əsərdə sənətlə elmin kəsişdiyini deyən alim kitabın ərsəyə gəlməsinə görə onun təşəbbüskarı olan Hafiz Paşayevə və tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə və Milli Kitabxanaya minnətdarlığını bildirib, sonda Füzulinin "Yetməzmi" qəzəlini söyləyib.

Mir Cəlal Paşayevin oğlu, ADA Universitetinin rektoru professor Hafiz Paşayev əsərin yazılma tarixi haqqında Mir Cəlal müəllimin xatirələrindən danışıb, kitabın tərcüməçisi Mixael Raynhard Hessə, tədbirin təşkilatçılarına və bütün qonaqlara təşəkkürünü bildirib.

Sonda XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas-alim, professor Mir Cəlal Paşayev haqqında Milli Kitabxananın hazırladığı elektron məlumat bazasının təqdimatı olub.

Əlavə edək ki, Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" əsərinin daha bir təqdimatı görkəmli ədəbiyyatşünas-alim və pedaqoqun uzun illər çalışdığı Bakı Dövlət Universitetində keçirilib. Tədbirdə professor Hafiz Paşayev, BDU-nun rəhbərliyi, müəllim-professor heyəti, kitabın almancaya tərcüməçisi Mixael Raynhard Hess iştirak ediblər.



# 100 cildlik "Türk ədəbiyyatının inciləri"

## Özbəkistandan gətirilən kitabların təqdimatı

Ölkəmizdə keçirilən Özbəkistanın elm və mədəniyyət günləri (23-26 yanvar) çərçivəsində Beynəlxalq Muğam Mərkəzində 100 cildlik "Türk ədəbiyyatının inciləri" seriyasından kitabların təqdimatı olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2019-cu ildə imzaladığı sərəncam əsasında nəşr olunmuş 100 cildliyin 16 cildi Azərbaycan ədəbiyyatını əhatə edir.

Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Qeyrət Məcidin aparıcılığı ilə keçən tədbirdə ilk olaraq bu ölkənin Azərbaycandakı səfiri Bahrom Aşrafxanov çıxış edib. O, Özbəkistanla Azərbaycan arasındakı dostluq münasibətlərindən söz açıb. Qeyd edib ki, son iki il ərzində dövlət rəhbərlərimiz tərəfindən yeddi dəfə qarşılıqlı səfərin gerçəkləşməsi bu münasibətlərin yüksək səviyyəsini göstərir. Bu müddətdə ölkələrimiz arasında mədəni-humanitar sahədə 100-dən çox tədbir, o cümlədən ötən il Azərbaycanda Özbəkistan mədəniyyəti günləri keçirilib. Özbəkistanın elm və mədəniyyət günləri də mühüm layihələrin əsasının qoyulmasına töhfə verəcək.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası sədrinin birinci müavini Akmal Saidov iki qardaş ölkə arasında siyasi və mədəni əlaqələrin inkişafından, gənc nəsil arasında təhsil və mədəni tanıtım baxımından birgə layihələrin əhəmiyyətindən danışıb.

Özbəkistanlı deputatlar İqbal Mirzə, Oydin Abdullayeva, Özbəkistanın Xalq yazıçısı Erkin Azam, Xalq şairi Mahmud Tahir, "Kitab dünyası" qəzetinin baş redaktoru, şair-publisist Xasiyyət Rüstəm, şair Gülbahar Səid, Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar iki ölkə arasında ədəbi əlaqələrdən söz açıblar.

Azərbaycanla Özbəkistan arasında mədəniyyət, ədəbiyyat və təhsil sahəsində əlaqələrin ən yüksək səviyyədə olduğu, bu istiqamətdə hər il çoxsaylı tədbirlər və layihələrin həyata keçirilməsi təqdirəlayiq hal kimi dəyərləndirilib. Diqqətə çatdırılıb ki, 100 cildlik "Türk ədəbiyyatının inciləri" seriyasında XI-XXI əsrlərdə yaşayıb-yaratmış Özbəkistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstanı əhatə edən 629 şair, yazıçı və mütəfəkkirin (o cümlədən 183 azərbaycanlı müəllifin) əsərləri yer alıb. 100 cildlik toplunun hazırlanmasında 200-dən çox tərcüməçi iştirak edib. Çıxışçılar layihənin bütövlükdə türk respublikalarının ədəbiyyatsevərləri və tədqiqatçıları üçün mühüm hadisə olduğunu vurğulayaraq nəşrin soykökü, dili, dini, mədəniyyəti yaxın olan xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracağını bildiriblər.

Qeyd olunub ki, 100 cildlik Azərbaycan Milli Kitabxanasına hədiyyə ediləcək.

**Lalə Azəri**

# Özbəkistan və Azərbaycan: mədəniyyətlərin dialoqu



Bakıda keçirilən Özbəkistanın elm və mədəniyyət günləri çərçivəsində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Özbəkistan və Azərbaycan: mədəniyyətlərin dialoqu" adlı dəyirmi masa təşkil olunub.

Əvvəlcə qonaqlar institutun Əlyazmaların elmi ekspozisiyası və təqdimi şöbəsinin hazırladığı özbək müəlliflərinə aid əlyazmalarla bağlı sərgi ilə tanış olublar.

Dəyirmi masada çıxış edən institutun direktoru akademik Teymur Kərimli Azərbaycan ilə Özbəkistan arasında tarixən sıx mədəni əlaqələrin mövcud olduğunu, hər iki xalqın bir-birinin mədəniyyətindən bəhrələnib onun inkişafına özünəməxsus təsir göstərdiyini deyib. O, Azərbaycan-özbək ədəbi əlaqələrinin poetik təməlinin özbək klassik şairlərinin Nizami Gəncəvi irsinə məhəbbəti ilə qoyulduğunu, Əlişir Nəvai və Məhəmməd Füzulinin ustad-varis münasibətilə daha da möhkəmləndiyini vurğulayıb.

Sonra Özbəkistan Kinematoqrafiya Agentliyinin baş direktoru Firdavs Abduxaliqov və Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı çıxış ediblər. Bildirilib ki, Azərbaycanda və Özbəkistanda qarşılıqlı olaraq mədəniyyət günlərinin keçirilməsi ölkələrimiz arasında olan sıx dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsidir.

"Milli Azərbaycan Tarixi Muzeyinin özbək kolleksiyası haqqında", "Andromeda və balıq bürcləri Mirzə Uluqbəy tədqiqatlarında", "Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasında Özbəkistan və Azərbaycanın toy tikmələri (əl işləmələri)", "İncəsənət tarixində Özbəkistan və Azərbaycan əlaqələri", "Özbəkistanın əlyazma irsi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında", "Azərbaycan Milli İncəsənət Muzeyi kolleksiyasının özbək incəsənət nümunələri vasitəsilə qarşılıqlı zənginləşdirilməsi" mövzularında məruzələr dinlənilib.

"Özbəkistanın mədəni mirası dünya saxlanclarında" layihəsi çərçivəsində çap olunan çoxcildliyin 36-50-ci cildləri institutun kitabxanasına hədiyyə edilib.

# "Azərbaycanla təhsil sahəsində əlaqələri daha da inkişaf etdirəcəyik"

Xəbər verildiyi kim, Türkiyənin milli təhsil naziri Yusuf Tekin 30-31 yanvar tarixlərində Azərbaycana səfər edib.



Səfər ərəfəsində "Mədəniyyət" qəzetinə açıqlama verən nazir qardaş ölkələrimiz arasında təhsil sahəsindəki əlaqələri yüksək dəyərləndirib: "Türkiyə və Azərbaycan "Bir millət, iki dövlət" prinsipi ilə, çiyin-çiyinə, bənzərinə çox az rast gəlinən əlaqələrlə ikitərəfli əməkdaşlığı inkişaf etdirir. Ölkələrimizin təhsil nazirlikləri də gələcək nəsillərin sağlam təməllərə əsaslanaraq yetişdirilməsinə məsul olan rəsmi qurumlardır. Əsas vəzifələrimizdən biri də iki qardaş ölkənin birliyini, həmrəyliyini gələcək nəsillərə yüksək şəkildə çatdırmaqdır".

Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində əlaqələrin inkişafına toxunan Yusuf Tekin bildirib ki, Bakı ilə müvafiq əlaqələrimiz Azərbaycandakı təhsil müşavirliyimiz vasitəsilə mütəmadi diqqətimizdədir: "Bakıda nazirliyimizə tabe olan uşaq bağçası, ibtidai sinif, orta məktəb və liseydə üç minə yaxın şagird təhsilini davam etdirir. Milli Təhsil Nazirliyi tərəfindən göndərilən 100-ə yaxın müəllim türk məktəblərində çalışır. Bundan əlavə, həmin təhsil müəssisələrinə köməkçi müəllimlər də təhkim olunub. Azərbaycan və Türkiyə təhsil nazirliklərinin dəstəyi ilə həyata keçirilən "Qardaş məktəb" beynəlxalq layihəsinin təcrübəsi çərçivəsində iki ölkənin 30 məktəbi arasında qardaşlıq əlaqələri qurulub. Bu məktəblər əməkdaşlıq, təcrübə mübadiləsi və mədəniyyətlərimizin təbliği baxımından mühüm rol oynayır. Məsələn, Beynəlxalq Anadolu İmam Hatip liseylərimizdə 27 azərbaycanlı şagird ödənişsiz təhsil alır".

Nazir onu da qeyd edib ki, hazırda Türkiyənin ali təhsil müəssisələrində 604-ü bu ölkənin təqaüdünü alan 35 minə yaxın azərbaycanlı tələbə təhsilini davam etdirir. Azərbaycanda isə 7 tələbəmiz doktorantura təhsili alır: "Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın ötən ilin iyun ayında Bakıya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərində Türkiyə ilə Azərbaycan arasında birgə universitetin yaradılması da gündəmdə idi. Bununla hər iki ölkədən olan gənclərimiz həm Türkiyədə, həm də Azərbaycanda təhsil almaq imkanı əldə edəcəklər".

Yusuf Tekinin sözlərinə görə, Ankara, Adana, Qaziantep, İğdır, İzmir, Qars vilayətlərində Ulu öndər Heydər Əliyevin adını daşıyan orta məktəblər fəaliyyət göstərir: "Türkiyə, xüsusilə, son iyirmi ildə təhsil sahəsində böyük dəyişikliklərə nail olub. Biz bu təcrübəni qardaş Azərbaycanla bölüşməkdən çox məmnunuq. İnanıram ki, biz bunu daha geniş çərçivədə davam etdirəcəyik".

**Mehparə Sultanova**
**Ankara**

# Mərkəzi İncəsənət Məktəbində Norveç bəstəkarına həsr olunan konsert



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində görkəmli Norveç bəstəkarı, pianoçu, dirijor Edvard Qriqə (1843–1907) həsr olunmuş konsert keçirilib.

Tədbirin təşkilatçısı və aparıcısı məktəbin fortepiano ixtisası üzrə müəllimi, respublika və beynəlxalq müsabiqələr laureatı Nigar Heydərli bəstəkarın həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, E.Qriq Norveçin klassik musiqisinin yaradıcısı hesab olunur.

Konsertdə bəstəkarın "Dağ kralının mağarasında", "Norveç rəqsi", "Halling", "Ad günü", "Elflərin rəqsi" kimi əsərlər məktəbin müəllim və şagirdlərinin ifalarında səslənib.

Sonda məktəbin direktoru Əməkdar artist, dosent Əziz Qarayusifli konsertin aparıcısına və iştirakçılarına təşəkkür edib.

# Mərdəkan və Maştağada "Qonağımız var"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Qonağımız var" layihəsi davam edir. Layihə çərçivəsində incəsənət ustaları və yazarlarla tamaşaçıların, oxucuların görüşləri təşkil olunur.

Mərdəkan Mədəniyyət Sarayında layihə çərçivəsində tanınmış müğənni, Xalq artisti Eyyub Yaqubovla görüş keçirilib.

Aparıcı tədbiri açıq elan etdikdən sonra tamaşaçıların alqışları ilə müğənni səhnəyə dəvət olunub. Sənətkarın həyat və fəaliyyəti haqqında məlumat verilib, yaradıcılıq uğurlarından söhbət açılıb.

Eyyub Yaqubov "Mənə dəniz verin", "Əzizim", "Bakı" kimi sevilən mahnıları ilə tamaşaçıların könlünü oxşayıb.





Görüş "Səma" rəqs kollektivinin müşayiətində Xalq artistinin ifasında "Azəri torpağı" mahnısı ilə başa çatıb.

***

Layihə üzrə daha bir görüş Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində (Maştağa qəsəbəsi) gerçəkləşib. Əməkdar artist, tanınmış aktrisa və televiziya aparıcısı Dilarə Əliyeva sənətsevərlərin qonağı olub.

Aktrisanın həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Dilarə Əliyeva tamaşa və filmlərdə canlandırdığı obrazlardan, televiziya layihələrindən danışıb. Aktrisanın çəkildiyi filmlərdən fraqmentlər nümayiş olunub.

Sonda Dilarə Əliyeva tamaşaçıların suallarını cavablandırıb və xatirə şəkilləri çəkdirilib.

№8 (2073)
31 yanvar 2024
www.medeniyyet.az

# Vətəndaşlarla növbəti görüş Salyanda keçiriləcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən fevralın 23-də saat 10:00-da Salyan rayonu Heydər Əliyev Mərkəzində (Salyan şəhəri, Təbriz Xəlilbəyli küçəsi, 136) Salyan, Hacıqabul, Biləsuvar, Neftçala rayonlarından və Şirvan şəhərindən olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 19 fevral tarixinədək Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin shirvan-salyan@culture.gov.az elektron poçt ünvanı, (025) 295-15-82 telefon nömrəsi vasitəsilə müraciət etməklə qəbula yazıla bilərlər.

# İstiqlal mücadiləmizin parlaq siması

Görkəmli ictimai-siyasi xadim, ilk Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) 140 illiyinin qeyd edilməsi haqqında dövlət başçısının sərəncamına əsasən, Astara Tarix-Diyarşünaslıq Muzeyində tədbir təşkil olunub. Tədbirdə qeyd olunub ki, Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərib.



Sonda şagirdlərin ifasında vətənpərvərlik mövzulu şeirlər səsləndirilib.

Lerik rayon Heydər Əliyev Mərkəzi və Arif Nuriyev adına şəhər 1 nömrəli texniki fənlər təmayüllü liseyin birgə təşkilatçılığı ilə "İstiqlal mücadiləmizin parlaq siması – Məhəmməd Əmin Rəsulzadə" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxışlardan sonra Rəsulzadə haqqında qısametrajlı film nümayiş etdirilib.

# Türkiyənin Gəncədəki baş konsulu Ağdaşda



Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop Ağdaş rayonuna səfər edib. Səfər zamanı diplomat bir neçə mədəniyyət müəssisəsinə də baş çəkib.

Baş konsul Ağdaş rayon Heydər Əliyev Mərkəzinin ekspozisiyası ilə tanış olub. Rayon Mədəniyyət Mərkəzinin rəssamı Məlahət İsmayıl qonağa rəsm əsəri hədiyyə edib.

Tarix-Diyarşünaslıq Muzeyində olan diplomata rayonun tarixi, mədəniyyəti, təbiəti və s. haqqında ətraflı məlumat verilib.

Diplomat Ağdaş şəhər Habil Əliyev adına 1 nömrəli Uşaq musiqi məktəbinin fəaliyyəti ilə də tanış olub, məktəbin müəllim və şagirdlərinin ifasında təqdim edilən konsert proqramını dinləyib.

# "Hophopnamə" kitab mərkəzində yazarla görüş



Yazıçı-dramaturq, "Qobustan" jurnalının baş redaktoru Pərvin Nurəliyeva Sabirabad şəhərindəki "Hophopnamə" kitab mərkəzində oxucuların qonağı olub.

Mədəniyyət, təhsil işçiləri, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Mil-Muğan Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı çıxış edərək bölgələrdə ədəbiyyat adamları ilə görüşlərin, imza günlərinin keçirilməsinin əhəmiyyətindən söz açıb.

Tədbirin moderatoru Ağalar Ağaməmmədov yazarın "Qadın olmaq", "Balerina", "Səhnə" və s. kitabları və "Qobustan" jurnalı haqqında məlumat verib.

Daha sonra müəllif yaradıcılığı barədə danışıb, iştirakçıların suallarını cavablandırıb, kitablarını oxucular üçün imzalayıb.

# "Əbədiyyətə qovuşanlar" – Sumqayıtda şəhidlərin xatirəsi anılıb

Sumqayıtdakı Poeziya evində "Əbədiyyətə qovuşanlar" adlı tədbir keçirilib. Tədbir torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan doqquz Vətən oğlunun xatirəsinə həsr olunub.




Qubadlı rayon Xıdırlı kənd tam orta məktəbinin (Sumqayıt şəhəri) hazırladığı tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məktəbin direktoru Savalan İmanov, Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi şəhər şöbəsinin sədr müavini Ülvi Məmmədov və müəllim Elnurə Sadıqova çıxış ediblər. Bildirilib ki, şəhidlik Vətən, torpaq, böyük amallar uğrunda canından keçmək, ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır.

Sonra şəhidlər Xəyal Məmmədov, Mirzə Novruzov, Kərim Əhmədəliyev, İlqar Əhmədov, Natiq Bəxşəliyev, Əbdülməcid Axundov, Heydər Xudiyev, Gəray Məmmədov və Xalid Quliyevin doğmaları çıxış edərək onların şücaətindən söz açıblar.

Məktəblilər vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, musiqi nömrələri ifa olunub.

# Bölgələrdəki teatr-tamaşa və konsert müəssisələri günün tələblərinə cavab verirmi?





*əvvəli səh. 1-də*

Teatrların repertuarı üçün əsərlər seçilərkən ədəbi nümunələrin müasirliyi, ideya-bədii cəhətdən mükəmməlliyi, xalqımızın milli-mənəvi dəyərlərinə uyğunluğu və maarifləndirici xüsusiyyətlərə malik olması vacib şərtdir.

Bildirilib ki, teatrlarda Bədii şuraların aktiv fəaliyyəti təmin olunmalı, marketinq və teatr-sponsor strategiyasının formalaşdırılması, rəhbərlər üçün treninqlərin keçirilməsi, dramaturqlarla əlaqələrin qurulması diqqətdə saxlanılmalıdır. Gənc yaradıcı kadrların öz potensiallarını lazımi səviyyədə nümayiş etdirmələri üçün münbit şəraitin yaradılması da vacib məsələlərdəndir. Regionlarda teatr sahəsində kadr problemini aradan qaldırmaq məqsədilə bir sıra dövlət teatrlarının nəzdində yaradılmış teatr-studiyalarının fəaliyyətinə yenidən baxılmalıdır.

Vurğulanıb ki, vətəndaşların, xüsusilə də, həssas qrupların teatr və konsert müəssisələrinin xidmətlərindən lazımi şəkildə istifadəsi məqsədilə inklüziv layihələr də həyata keçirilməlidir.

Həmçinin bildirilib ki, paytaxtda fəaliyyət göstərən dövlət teatrlarının və konsert müəssisələri kollektivlərinin bölgələrə qastrol səfərləri təşkil olunmalı, onlar da region sakinlərinin mədəni istirahətinə öz töhfələrini verməlidirlər.

Qeyd edilib ki, bütün müəssisələrdə yanğın və texniki təhlükəsizlik qaydalarına ciddi riayət olunmalı, bununla bağlı əməkdaşlar davamlı şəkildə təlimatlandırılmalıdır.

Müşavirədə çıxış edən Gəncə Dövlət Dram Teatrının direktoru Aqil Bəhramlı, Füzuli Dövlət Dram Teatrının direktoru Vaqif Vəliyev, Şəki Dövlət Dram Teatrının direktoru vəzifəsini icra edən Mirbala Səlimli, Lənkəran Dövlət Dram Teatrının direktoru vəzifəsini icra edən İntiqam Hacılı, Sumqayıt Dövlət Dram Teatrının direktor müavini Vidadi Məmmədov, Salyan Dövlət Kukla Teatrının direktoru Laləzar Hüseynova, Mingəçevir Dövlət Dram Teatrının direktoru İntiqam Həsənov, Qax Dövlət Gürcü Dram Teatrının direktoru Zita Xəlilova, Ağdam Dövlət Dram Teatrının direktoru Məhəmməd Hüseynov, Qazax Dövlət Dram Teatrının direktoru vəzifəsini icra edən Allahverdi Musayev, həmin teatrın baş rejissoru Musa Eyyubov, Gəncə Dövlət Kukla Teatrının direktoru Fərmail Paşayev müəssisələrin fəaliyyəti haqqında məlumat verib, təkliflərini səsləndiriblər.

# İndoneziyanın incəsənət ustaları Şəkidə çıxış ediblər

İndoneziya Respublikasının Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə yanvarın 27-də Şəki Dövlət Dram Teatrında bu ölkənin musiqi və rəqs kollektivlərinin ifasında konsert proqramı təqdim olunub.



Teatrın foyesində İndoneziyanın mədəniyyətini və turizm potensialını tanıdan sərgi də təşkil edilib.

İndoneziyanın ölkəmizdəki səfiri Hildi Hamid sərginin və konsertin təşkilinə göstərdiyi dəstəyə və qonaqpərvərliyə görə şəhər rəhbərliyinə minnətdarlığını bildirib. Qeyd olunub ki, İndoneziya səfirliyi tərəfindən həyata keçirilən proqram xalqlarımız arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin, dostluq münasibətlərinin daha da genişləndirilməsi məqsədi daşıyır.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Azərbaycanla İndoneziya arasında dostluq və mədəni əlaqələrin uğurla davam etdirildiyini vurğulayıb, dost ölkənin musiqi və rəqs kollektivlərini bu ilin yayında Şəkidə keçiriləcək ənənəvi "İpək Yolu" Beynəlxalq Musiqi Festivalında iştiraka dəvət edib.

Konsertdə indoneziyalı incəsənət ustalarının təqdim etdikləri milli rəqslər və musiqi nömrələri şəkili musiqisevərlər tərəfindən maraqla qarşılanıb.

# Gimnastika Federasiyasının Sabirabadda dərnəyi yaradılıb

Yanvarın 27-də Mil-Muğan Regional Mədəniyyət İdarəsi (RMİ) və Mil-Muğan Regional Gənclər və İdman İdarəsinin (RGİİ) birgə təşkilatçılığı ilə Azərbaycan Gimnastika Federasiyasının (AGF) Sabirabad rayon Mədəniyyət Mərkəzində bədii gimnastika dərnəyi açılıb və dərnəyin ilk məşqi olub.



Mil-Muğan RGİİ-nin rəisi Nadir Quliyev deyib ki, dövlət tərəfindən Sabirabad rayonunda idmanın inkişafı üçün hər cür şərait yaradılıb. Bədii gimnastikaya da regionda böyük maraq var.

Mil-Muğan RMİ-nin rəis müavini Telman Əzimov gimnastika dərnəyinə göstərilən marağa görə valideynlərə minnətdarlığını bildirib, dərslərə qoşulan uşaqlara uğurlar diləyib.

Valideynlər yaradılan şəraitə görə təşkilatçılara təşəkkür ediblər.

İlk məşqdə 10-dan çox azyaşlı və yeniyetmə iştirak edib.

Qeyd edək ki, dərslər həftənin şənbə və bazar günləri AGF-nin məşqçisi Reyhan Məmmədzadə tərəfindən aparılacaq.

# Bəşəri bəla ilə davamlı mübarizə aparılmalıdır

Astara rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.




Kitabxananın şöbə müdiri Gülüstan Dadaşova bildirib ki, bəşəriyyətin ən ağrılı problemlərindən olan narkomaniya bütün cəmiyyət üçün eyni dərəcədə təhlükəlidir.

Qeyd olunub ki, Azərbaycanda narkomaniya ilə mübarizə məqsədilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılıb. Narkomaniya əleyhinə aparılan tədbirlər hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Astara şəhər M.Ə.Sabir adına 1 nömrəli tam orta məktəbin psixoloqu Elsura Nəzirova və Uşaq şöbəsinin əməkdaşı Aysel Əhmədova mövzu ətrafında çıxış ediblər.

# Füzuliyə 2 minə yaxın, Laçına 1600-dən çox sakin köçürülüb



Füzuli şəhərində yeni salınan yaşayış kompleksinə keçmiş məcburilərin köçü davam edir. Yanvarın 26-da 30 ailə (104 nəfər), ayın 29-da isə daha 27 ailə (115 nəfər) Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Füzuliyə çatan ailələrə dövlət tərəfindən tikilən mənzillərinin açarları təqdim olunub. Ailələrə ANAMA əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tapşırılıb.

Qeyd edək ki, indiyədək Füzuli şəhərində 527 ailənin (1969 nəfər) daimi məskunlaşması təmin edilib.

***

Yanvarın 30-da Laçın şəhərinə də növbəti köç karvanı yola salınıb. Respublikanın müxtəlif ərazilərində məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı paytaxtın Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə (72 nəfər) köçürülüb.

İndiyədək Laçın şəhərində 1627 nəfər olmaqla, 431 ailənin daimi məskunlaşması təmin edilib.

# Bu il Cəbrayılın Horovlu kəndində də məskunlaşma başlayacaq

Cəbrayılın Horovlu kəndində kəhrizlər bərpa olunur. Cəbrayıl və Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi, Ekoloji məsələlər üzrə İşçi qrupun üzvü Nərgiz Qaracayeva bu barədə işçi qrupun Zəngilanda keçirilən iclasında məlumat verib.

O bildirib ki, 2023-cü ildə Cəbrayıl rayonunun Horovlu kəndində bərpa-tikinti işləri başlayıb. İşğaldan öncə Cəbrayıl rayonu ərazisində 100-dən çox kəhriz olub, işğal dövründə kəhrizlər dağıdılıb. Hazırda Horovlu kəndində 5 kəhriz bərpa olunur. 2 kəhrizdə işlər bitib, 3-nün bərpası üzrə işlər yaxın aylarda tamamlanacaq.

Nərgiz Qaracayeva qeyd edib ki, "Böyük Qayıdış" Dövlət Proqramı üzrə 2024-cü ilin sonunadək bu kəndə məskunlaşma başlanacaq. İlk mərhələdə kənddə 1400-dək sakinin yerləşməsi nəzərdə tutulur.

# Azad edilən ərazilərdə neçə nəfər daimi işlə təmin olunub?

"Böyük Qayıdış" Proqramı çərçivəsində öz ata-baba yurduna köçən 2 mindən çox iqtisadi fəal və əməkqabiliyyətli vətəndaşlarla aktiv iş aparılıb. Onlardan 1300 nəfəri daimi işlə təmin olunub.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev işğaldan azad olunan ərazilərdə məşğulluğun həlli ilə əlaqədar görülən işlərdən bəhs edərkən deyib.

O bildirib ki, əməkqabiliyyətli şəxslərin peşə hazırlığı tədrisinə cəlb olunması qarşıda duran əsas hədəflərdəndir. Ötən il doğma yurda dönən təqribən 600 nəfər üçün peşə hazırlığı üzrə müvafiq təlim və treninqlər keçirilib. Bu il həmin rəqəm 3 minə çatdırılacaq. 2023-cü ildə ilk dəfə olaraq Füzuli və Laçında əmək yarmarkaları keçirilib, stimullaşdırıcı paketlər təsdiq edilib.

Nazir diqqətə çatdırıb ki, işğaldan azad olunan bölgələrdə işləyən şəxslərin əməkhaqqına 20 faiz əlavə, həmçinin 600 manat məbləğində birdəfəlik müavinət ödənilir, işəgötürənlərə ödənilən sosial sığorta haqları subsidiyalaşdırılır. Bölgəyə köçən sakinlər üçün həm vergi, həm sosial sığorta, həm də əməkhaqqı güzəştləri var.

# Gənc bəstəkarın “Rəngli lövhələr”i təqdim edilib

Yanvarın 26-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) gənc bəstəkar İlahə Qismətin “Rəngli lövhələr” fortepiano məcmuəsinin təqdimatı keçirilib.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxış edərək bu məkanda vaxtaşırı olaraq gənc bəstəkar və musiqişünasların yaradıcılığına dair tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, İlahə Qismət də belə istedadlı müəlliflərdən biridir.



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) elmi tədqiqat laboratoriyasının müdiri Nuridə İsmayılzadə, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin şöbə müdiri Nemət Mürsəlov, BMA-nın doktorantı Fidan Nəsirova-Əhmədova İlahə Qismətin bəstəkarlıq, ifaçılıq və elmi fəaliyyəti haqqında fikirlərini bildiriblər.

“Rəngli lövhələr” məcmuəsinin uşaqların musiqi tərbiyəsində mühüm əhəmiyyətə malik olduğu qeyd edilib.

Bəstəkar İlahə Qismət fortepiano məcmuəsinin yaranması ilə bağlı fikirlərini bölüşüb.

Sonra balaca ifaçılar “Rəngli lövhələr”dən musiqi nümunələri səsləndiriblər.

ABİ-nin sədri Xalq artisti Firəngiz Əlizadə çıxış edərək İlahə Qismətə yaradıcılıq uğurları arzulayıb.

# “Qaya”: əfsanəni yaşadanlar



1960-70-ci illəri görmüş yaşlı nəsil şöhrəti bütün keçmiş SSRİ-də və bir çox xarici ölkələrdə yayılan Azərbaycanın əfsanəvi “Qaya” vokal kvartetini yaxşı xatırlayır. Teymur Mirzəyev, Arif Hacıyev, Rauf Babayev və Lev Yelisavetski həmin illərdə gənclərin sevimli müğənniləri idi. Ötən əsrin 80-ci illərində ansamblın tərkibi dəyişməyə başladı. Kollektivin əsasında caz orkestri yaradıldı. Sonra Lev Yelisavetski və ansamblın bədii rəhbəri Teymur Mirzəyev ölkədən getdilər. 1995-ci ildə kollektiv fəaliyyətini dayandırdı...

## Yeni ildə ilk konsert

90-cı illərin sonlarında məşhur “kvartet”dən Xalq artisti Rauf Babayev “Qaya”nın nəzdində “Bəri bax” uşaq vokal ansamblını yaratdı. Balaca istedadların əsas repertuarını “Qaya”nın repertuarına daxil olan Azərbaycan xalq və bəstəkar mahnıları, kompozisiyalar, caz interpretasiyaları təşkil edirdi. Beləcə, uşaq vokal ansamblı səhnədə böyüyərək sələfinin adını yaşatmaq haqqı qazandı. 2007-ci ildə “Bəri bax” fəaliyyətini “Qaya” ansamblı kimi davam etdirməyə başladı və kollektiv yenidən dövlət statusu aldı. Xalq artisti Rauf Babayev 2020-ci ildə vəfatınadək bu kollektivə rəhbərlik etdi. 2023-cü ildə isə “Qaya” Dövlət Ansamblının bədii rəhbəri Rüfət Babayev dünyasını dəyişdi...

Yanvarın 26-da Beynəlxalq Muğam Mərkəzində “Qaya” Dövlət Ansamblının konserti olub. Konsertdən əvvəl çıxış edən ansamblın direktoru, musiqişünas Turan Məmmədəliyeva qeyd edib ki, bu, kollektivin rəhbəri Əməkdar artisti Rüfət Babayevin vəfatından sonra keçirilən ilk konsertdir. Sonra proqram barədə məlumat verilib.

Qeyd edilib ki, Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettası mövzusunda fantaziya – caz təranələri və klassik musiqinin sintezi vaxtilə Rauf Babayev və hazırda “Qaya” ansamblının bəstəkarı olan Nazim Əhmədov tərəfindən bəstələnib.

Həmin fantaziyanın konsert ifası ilk dəfə tamaşaçılara təqdim olunub. “Arşın mal alan”dan ariyaları ifa edən Cahangir Pərişani, Şölə Səfərəliyeva, Səbinə Hacıyeva, Nigar Cəlilova, Günay Əhmədova və Boris Bayramovun çıxışları tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Solistlərlə yanaşı, instrumentalçılar – vaxtilə “Qaya”nın birinci heyətinin tərkibində çıxış etmiş Rafael Bünyadov (elektrogitara), Vaqif Əliyev (zərb alətləri), Fərrux Cəfərov (elektropiano), eləcə də nisbətən gənc saksofonçular Fərid Mailov, Fərhad Cəfərov və trubaçı Oqtay Rüstəmov ifaları da alqış qazanıb.

Proqramda xalq mahnıları və “Qaya”nın repertuarında olmuş Tofiq Quliyev, Vasif Adıgözəlov və başqa bəstəkarların əsərləri təqdim edilib. Konsert məşhur kollektivin vizit kartı olan “Ey həyat, sən nə qəribəsən?” mahnısı ilə başa çatıb.

## Filarmoniyada Dövlət Simfonik Orkestrinin növbəti konserti

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin növbəti konserti keçirilib.



Filarmoniyadan bildirilib ki, orkestri dirijor Mustafa Mehmandarov idarə edib. Orkestrin müşayiəti ilə solist Nicat Məmmədov (fleyta) ifasını dinləyicilərə təqdim edib.

Proqramda Maurice Ravelin “Ma mère l'oye” süitası, Joaquín Rodriqonun “fleyta və orkestr üçün konsert-pastoral”ı (Bakıda ilk ifa), Manuel de Fallanın “El sombrero de tres picos”, 2 saylı süitası (Bakıda ilk ifa) səslənib.

# “Özünü cazda deyil, cazı özündə sevmək lazımdır”

Xəbər verdiyimiz kimi, tanınmış caz musiqiçisi, pianoçu, bəstəkar, Xalq artisti, R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının bədii rəhbəri Salman Qəmbərov bu günlərdə “Bakustic Jazz” qrupu ilə Vyana və Brüsseldə konsertlər verib. O, qastrol təəssüratını AZƏRTAC-a müsahibəsində bölüşüb.

1996-cı ildə yaratdığı “Bakustic Jazz” qrupu ilə dünyanın bir çox ölkələrində çıxış etdiyini deyən sənətkar diqqətə çatdırıb ki, qrupunun tərkibi layihələrdən asılı olaraq dəyişir. Budəfəki səfərə də trio iki heyətlə gedib: “Mən qrupu zarafatla “məhdudiyyətsiz məsuliyyətli açıq cəmiyyət” adlandırıram. Perkussiyalar (müxtəlif səsləndirmə imkanları olan zərb alətləri – red.) lazım olanda Tofiq Cabbarov, nağara lazım olanda Natiq Şirinov bizimlə çıxış edib. Müxtəlif müğənnilər, nəfəs alətlərində ifaçılar olub... Bu dəfə iki layihəm və iki triom vardı: mən və hər layihəyə iki musiqiçi. Fuad Cəfərov və Nicat Bayramovla caz musiqisini ifa etdik. “Lətif” layihəsində (1930-cu illərin səssiz Azərbaycan filminə Salman Qəmbərovun yazdığı saundtrek – red.) isə Xalq artisti, kamança ifaçısı Fəxrəddin Dadaşov, – bu layihəni onunla 2001-ci ildə başlamışam, – və nağaraçı Eyvaz Həşimov – o, ilk dəfə idi iştirak edirdi. Layihənin 23 yaşı var, biz onunla dünyanın yarısını gəzib-dolaşmışıq: Rusiyadan Argentinayadək...”.

Salman Qəmbərov deyir ki, Vyanada Avropanın ən yaxşı caz-klublarından olan “Porgy&Bess”də “Lətif”in saundtrekini ifa etdik: “Frau Mayer” klubunda isə solo proqramla etnocaz ifa etdim. “Bakustic” triosu ilə caz standartlarını da ifa etdik. Eyni proqramı Belçikada, Brüsseldə nümayiş etdirdik. “The Music Village” caz-klubunda çıxış etdik. Yeri gəlmişkən, Fikrət Əmirovun nəvəsinin həyat yoldaşı həmin caz-kluba rəhbərlik edir, o, belçikalıdır”.

Publikanın necə qarşılamasına gəlincə: “Artıq ifa zamanı hər şeyi hiss edirsən, stullar cırıldamır, çəngəl-qaşıq səs salmır, dikdabanların səsi gəlmir... Anlayırsan ki, səni dinləyirlər. Onlar buna görə pul ödəyirlər. Ora təsadüfi insanlar gəlmir. Mən anlayışlı tamaşaçı üçün ifa edəndə, özümü rahat




hiss edirəm. Əlçatan olmağım üçün hansısa populist addımlar atmağı xoşlamıram. Ürəyim istədiyimi ifa edirəm, bunun əlçatan olub-olmaması isə hər kəsin fərdiliyindən asılıdır”.

Xalq artisti bildirir ki, indiyədək müxtəlif ölkələrdəki çıxışlardan bir neçəsi xüsusilə yaddaqalan olub. Onlardan biri 2012-ci ildə Parisdə, UNESCO-nun binasında, 30 aprelin Beynəlxalq Caz Günü elan edilməsi münasibətilə keçirilən konsertdir. Qeyd edək ki, bu əlamətdar gün UNESCO-nun sülhməramlı səfiri, dünyaca məşhur caz pianoçusu Hörbi Henkokun təşəbbüsü ilə təsis olunub: “Biz də bu bayrama dəvət olunmuşduq. Orada da iki layihəni təqdim etdik: həm “Lətif”i, həm də “Bakustic Jazz”ın çıxışını. Mən bu günü xüsusilə xatırlayıram. Hörbi Henkok da tribunadan Azərbaycanı bu layihəni dəstəkləyən ölkə kimi vurğuladı. Bu, böyük fəxr idi ki, belə yüksək tribunadan caz ustadı, superulduz bu barədə deyir. Montrödəki (İsveçrə) caz festivalı da yaddaqalan olub. Çünki sənin arzuladığın festivala səni dəvət edəndə bu, yadda qalmaya bilməz. Montrödə çıxış etmək arzum yerinə yetdi. Avropanın caz klublarında çıxış etmək arzusu vardı, o da həyata keçdi...”.

Salman Qəmbərov “Azərbaycan, Bakı caz məktəbinin özəlliyi nədədir” sualına belə cavab verib: “Yəqin ki, unikallığı ondadır ki, bizdə başdan-başa pianoçulardır. Yaxşı nəfəs alətləri məktəbinin olmasını istərdim, kontrabasçalanın bir deyil, bir neçə nəfər olmasını istərdim. Bu, yəqin ki, “mənfi” işarəli unikallıqdır... Niyə belə olduğunu demək çətindir... Yoxsa toylar bizi qabaqlayır... Maliyyə baxımından caz musiqisi bu rəqabətə tab gətirmir. Əgər sən toy biznesinə qoşulursansa, onda heç. Çünki sənin beyinin həmişə tamamilə başqa musiqi ilə dolu olur. Zövq də korlanır, xüsusən də o, hələ səndə formalaşmayıbsa”.

Sənətkar deyir ki, bu gün azərbaycanlı cazmenlərin dünyaya çıxması üçün imkanlar çoxdur, amma bundan necə istifadə etmək başqa məsələdir: “Rafiq Babayev və Vaqif Mustafazadə nəslinin Bakıda caz klubu yox idi. Bizim nəsil caz klubunu yalnız 1997-ci ildə gördü. Rafiq Babayev və Vaqif Mustafazadənin dövründə (dünyaya çıxmaq üçün) “dəmir pərdə” vardı. Bizim dövrümüzdə bu pərdə yarıyadək açılmışdı, lakin harasa oxumağa getmək kimi imkanlarımız yox idi. Sonrakı nəsil təhsil almaq imkanına malikdir, bundan istifadə etmək lazımdır, özü də vicdanla. İstərdim bütün bunlar ciddi olsun. Bax, Elçin Şirinov ciddi musiqiçidir, müxtəlif caz layihələri hazırlayır və etnik musiqimizi də ifa edir. Lakin o, bunu populist kimi deyil, ciddi musiqiçi kimi edir. İstərdim ki, gənclərimiz ondan örnək götürsünlər. Bilsinlər ki, nəyi oxumaq, nəyi öyrənmək lazımdır. Cazı puldan çox sevmək lazımdır. Özünü cazda deyil, cazı özündə sevmək lazımdır. Özünü göstərmək lazım deyil...”.

Bu il 65 yaşı tamam olacaq (18 aprel) Salman Qəmbərov yubiley ilinin sənət planlarından da danışıb: “Aprelin 5-də İstanbulda necə deyərlər, yubileyöncəsi solo konserti verəcəyəm. Tədbir Camal Rəşid Rey konsert zalında olacaq. Mənim triom gedəcək, müğənni İlhamə Qasımova olacaq, yerli musiqiçilərdən götürəcəyəm, onlarla da əməkdaşlıq edirik. Sonra Almaniyada çıxışlar olacaq, avqustda pianoçu Florian Veberlə, sentyabrda – İsveçrə. Üstəgəl, Rəşid Behbudov teatrında gündəlik işim...”.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (96)

### 2001-ci il 18 iyun

Prezident Heydər Əliyev “Dövlət dilinin işlənməsinin təkmilləşdirilməsi haqqında” fərman imzalayıb. Fərmanla 2001-ci il avqustun 1-dən ölkədə Azərbaycan dilində olan bütün çap məhsulları latın qrafikalı əlifbaya keçib, bütün rəsmi yazışma və sənədləşmələr latın qrafikasında aparılmağa başlanıb.

### 2001-ci il 6 iyul

Heydər Əliyev Prezident iqamətgahında ölkənin ictimai-siyasi həyatında fəal iştirakına, elm, mədəniyyət, ədəbiyyat, təhsil, səhiyyə, memarlıq və s. sahələrdə xidmətlərinə görə bir qrup şəxsə “İstiqlal” və “Şöhrət” ordenlərini təqdim edib.

“İstiqlal” ordeni ilə təltif olunanlar arasında Azərbaycanın və SSRİ-nin Xalq rəssamı Tahir Salahov, Azərbaycanın Xalq artisti Əminə Dilbazi, Vera Şirye, Xalq rəssamı Kamil Əliyev; “Şöhrət” ordeni alanlar sırasında şair Məmməd Aslan, Zəlimxan Yaqub, akademiklər Bəkir Nəbiyev, Fuad Qasımzadə, professor İsmixan Rəhimov, Xalq artistləri Xuraman Qasımova, Tofiq Bakıxanov, Zərəş Həmzəyeva, memar Hafiz Əmirxanov və b. vardı.

*“...Sizin hər biriniz – görürəm ki, burada 80 yaşında da, 70 yaşında da olan adamlar var – nə qədər yol keçmisiniz... Hər biriniz öz yaradıcılığınızla, öz elmi əsərlərinizlə, fəaliyyətinizlə yüzlərlə, minlərlə insana fayda vermisiniz... Sevinirəm, çünki mənə müyəssər olubdur ki, bu insanların gördüyü işləri qiymətləndirim, onları təltif edim və bu ordenləri şəxsən onların özlərinə təqdim edim...”.*

### 2001-ci il 20 iyul

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ustad xanəndə, Xalq artisti Xan Şuşinskinin (İsfəndiyar Aslan oğlu Cavanşirov) 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

### 2001-ci il 9 avqust

“Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərman imzalayıb. Latın qrafikalı Azərbaycan əlifbasına tam keçidin təmin edildiyi 1 avqust (2001-ci il) tarixi Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilib.

### 2001-ci il 10 avqust

Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərinə görə Xalq rəssamı Vidadi Nərimanbəyovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.

### 2001-ci il 12 avqust

Milli dəyərlərin qorunması ilə bağlı bəyanatla çıxış edib. Bəyanat Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin mətbuatda (“Etimad” qəzeti) təhqir olunması ilə bağlı verilmişdi. Heydər Əliyev bəyanatında kütləvi informasiya vasitələrini söz və mətbuat azadlığından sui-istifadə etməməyə, əxlaq normalarına riayət etməyə, təhqirlərə yol verməməyə çağırıb.

*“...Hər xalqın öz mentaliteti var. Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik...”.*

### 2001-ci il 22 sentyabr

Neftçilər Gününə (20 sentyabr) həsr olunmuş təntənəli mərasimdə nitq söyləyib. Mərasimin bədii hissəsindən sonra incəsənət xadimləri ilə görüşüb.

### 2001-ci il 12 oktyabr

Bakıda dahi rus şairi A.S.Puşkinin abidəsinin açılış mərasimində nitq söyləyib.

### 2001-ci il 13 oktyabr

Azərbaycanın və SSRİ-nin Xalq artisti Rəşid Behbudovun xatirə gecəsində nitq söyləyib.

*“...Rəşid Behbudov Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır...Mən Rəşid Behbudovu ilk dəfə 1943-cü ildə Bakıda Zabitlər evində dinləmişəm. Ondan sonra mən Rəşid Behbudovun sənətinə, onun səsinə vurğunam... Rəşid Behbudov mərhum Tofiq Quliyev ilə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olubdur... Rəşid Behbudov özünəməxsus ustalığı ilə həm müasir estrada mahnılarını çox gözəl ifa edirdi, həm də Azərbaycan musiqi folklorundan, Azərbaycan xalq musiqisindən gözəl mahnıları götürüb onları müasirləşdirirdi və müasir estrada səviyyəsinə qaldırırdı. Yeni deyə bilərəm ki, Rəşid Behbudov Azərbaycanın xalq mahnıları ilə, musiqi folkloru ilə, müasir estrada mahnılarının Azərbaycan xüsusiyyətlərini daşıyan sintezini yarada bilmişdir.*

*Rəşid Behbudovun ifası tamamilə başqa idi. Məsələn, mahnılardan birində sözlər var: “İrəhmin gəlsin, nənə”. Azərbaycan ədəbi dildə “rəhmin gəlsin” deyilir. Amma xalq lap keçmişdən “rəhmin gəlsin” əvəzinə, “irəhmin gəlsin” deyir. Yəni o, mahnıları müasirləşdirəndə onların xalqa xas olan xüsusiyyətlərini, ləzzəti məqamlarını heç vaxt itirmirdi...*

*Sənətkar kimi Rəşid Behbudovun xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, gözəl səsi ilə yanaşı, mahnının sözlərini də gözəl tələffüz etmək qabiliyyəti var idi. Bəzən mahnını oxuyurlar, sözlər bir-birinə toqquşur, qavramaq mümkün olmur. Amma Rəşid Behbudov, ümumiyyətlə, bütün mahnıları ifa edərkən, sözləri o qədər aydın, səlis, o qədər düzgün tələffüz edirdi ki, bu, onun sənətini daha da yüksəldirdi.*

*“Arşın mal alan” filmi Azərbaycanda tarixi bir hadisə kimi meydana çıxdı. Ancaq onu rus dilinə tərcümə etdilər. Ən əsas cəhət ondan ibarətdir ki, Rəşid rus dilində də özü oxuyurdu, onun səsi idi... Rəşid Behbudovun o filmdə oxuduğu mahnıları insanlar gözəl bir musiqi kimi qəbul etmişdilər və çox yerlərdə oxuyurdular. Bəzən şənliklərdə görürdün ki, məsələn, bir rus Rəşid Behbudovun mahnısını böyük məhəbbətlə ifa edir. Bu, Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini dünyaya tanıdan bir əsər oldu...”.*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

Əli Tudə – 100

# Dönməz və döyüşkən ruhlu şair



Yanvarın 31-də XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən şair, yazıçı, tərcüməçi, Əməkdar incəsənət xadimi Əli Tudənin (1924–1996) anadan olmasının 100 illiyi tamam olur.

Valideynləri Cənubi Azərbaycanda Ərdəbil vilayətinin Çanaxbulaq kəndindən olan Əli Tudə 1924-cü il yanvarın 31-də Bakı şəhərində dünyaya göz açmışdır. Nakam tale Əlini çox erkən yaşlarında gözüyaşlı qoymuş, bir yaşında atası, beş yaşı olanda isə anası dünyadan köçmüşdür. Bundan sonra Əli nənəsi Qəribin himayəsi altında böyümüşdür. Şəhadətnamədə adı Heydər, soyadı isə Rzazadə yazılan balaca Əli 1931-ci ildə keçmiş Sovet küçəsindəki "Bədəlbəyin məktəbi" deyilən 1 nömrəli məktəbdə oxumağa başlayır. 4-cü sinifdə 150 nömrəli məktəbdə təhsilini davam etdirir.

12 yaşında ovaxtkı Bakı Mərkəzi Pionerlər Evinə gələrək sarayın nəzdində şair Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinə üzv yazılır. 1938-ci ildə Pionerlər evinin almanaxında "Oktyabr rayonu 150 nömrəli məktəbin yeddinci sinif tələbəsi Heydər Rzazadə" imzası ilə Əlinin iki şeiri şəkli ilə birgə çap edilmişdir. Bu imza ilə 1937-ci ildə onun "Sovet Konstitusiyası" şeiri "Kommunist", "Vətən nəğməsi" şeiri isə "Yeni yol" qəzetlərində dərc olunmuşdur.

1938-ci ildə Bakıdan "iranlı" adı ilə Cənuba sürgün edilmiş şair yeniyetməlik dövründən inqilabi hərəkata qoşulmuşdur. O, yenidən dirçəlməyə başlamış milli-azadlıq hərəkatında fəal mübariz kimi vuruşmuşdur. İranda əvvəl Tudə (xalq – red.), sonra isə Demokrat partiyalarının fəal üzvlərindən biri olan Əli Tudə təkcə şair kimi yox, həm də Milli Hökumətin dövlət xadimi kimi ad-san qazanmışdır. Maarif Nazirliyinə şöbə müdiri təyin edilən Əli Tudə ana dili dərslik kitablarının tərtibində və çapında xüsusi rol oynayır. Sonra isə dövlət filarmoniyası yaradır və onun ilk və son müdiri olur. O, hökumətin "21 Azər" medalı ilə təltif edilmişdir. Məhz elə bu zaman 22 yaşlı Əlinin alovlu misraları ilə dolu kitabı Təbrizdə Azərbaycan dilində çapa hazırlanmışdı. Lakin Milli hökumət süquta uğradığından kitab mətbəədəcə yandırılmışdır.

***

Cənubi Azərbaycan demokratik ədəbiyyatının yaradılmasında müstəsna xidmətləri ilə yaddaşlarda qalan şair öz xalqının içində, Şimali Azərbaycanda yarım əsrdən çox mühacir damğası altında yaşamalı olmuşdur. Bütün həyatı qaçaqaç-qovhaqovda, qadağalarda keçmiş şair illərlə gah Şimalda, gah da Cənubda məskunlaşaraq ağır mühacir ömrü sürmüş və bu həyatı "ayrılıq imtahanı" adlandırmışdır.

Cənub ədəbi prosesinin fəal iştirakçısı olmuş Əli Tudə istər Şimalda, istərsə də Cənubda sevilə-sevilə oxunan ədəbiyyat fədaisi idi. Mübariz ruhlu poeziya şairin əsərlərinin canı, qanı, şah damarıdır. O, odlu-alovlu dövrün əlamətdar yaradıcılıq hadisəsi sayılan inqilabi ruhlu şeirləri ilə xalqı hər an azadlıq uğrunda mübarizəyə ruhlandırmışdır.

Yeniyetmə Əli Cənub kəndlilərinin ağır və məşəqqətli həyatına acıyırdı. Bir dəfə o, bu qəbildən olan "Cütçü" şeirini yazır və ilk dəfə onu nənəsinə oxuyur. Bu şeirdə əkib-biçən, zəhmətə qatlaşan insanlara təlqin olunur ki, üsyan qaldırıb haqqını tələb etmək, "ağalıq qəsrini dağıtmaq" lazımdır:

*...Əgər istəsən ki, təmin olasan,*
*Torpaqla, məhsulla, suyla,*
*toxumla,*
*Xışı at... kotan tap, nəhəng*
*bir kotan,*
*Qabaqca ağalıq qəsrini şumla!*

İllər uzunu doğmalarına, əzizlərinə həsrət qalan siyasi mühacir varlığı ilə xalqına bağlı idi. Bütün ömrünü gah silah, gah da söz mübarizəsinə həsr etmişdi. Çoxlarının qorxu-ürküdən, tutatutdan öz canını qorumaqdan ötrü ağzını açıb bir kəlmə belə danışa bilmədiyi dövrdə gənc Əli şah rejiminə qarşı çıxmış, ağzından od-alov püskürə-püskürə gah səngərdə, gah da kütlə içərisində vuruşmuşdu: əlində silah, dilində "Vətən" kəlməsi.

Əli Tudə milli oyanış və milli özünüdərk prosesində qətiyyətli və mübariz bir gənc idi. Bu illərdə o, Cənubda nəşr olunan "Ziddi-faşist", "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şairlər məclisi"nin almanaxlarında və digər mətbu nəşrlərdə müntəzəm olaraq bədii yazılarla çıxış edirdi. O, "Şairlər məclisi" adlanan ədəbi dərnəyin fəal üzvlərindən idi. 1945-ci ildə Təbrizdə "Vətən yolu" qəzeti yanında təsis edilən "Şairlər məclisi" təkcə Təbrizdə deyil, Tehran, Ərdəbil, Mərənd, Sərab və Urmiyada, Cənubi Azərbaycanın və İranın digər şəhərlərində Azərbaycan dilində yazıb-yaradan 40-dan artıq yazıçını birləşdirmişdi. Cənubi Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus iz salmışdır.



Kitablarının əksəriyyəti şeir və poemalardan ibarət olsa da, şair qələmini nəsrdə də müvəffəqiyyətlə sınamışdır.

Müəllifin "Vətən parçası" povesti orijinallığı, ideya-bədii məzmunu etibarilə fərqli xüsusiyyətlərə malikdir. Xatirə-povest təsiri bağışlayan əsər proloqdan, 9 hekayədən və epiloqdan ibarətdir. Hadisələr Milli Hökumət dövründə Təbrizdə cərəyan edir. Lirik qəhrəman Əli Tudənin özüdür; əsas süjet xətti Təbriz Dövlət Filarmoniyasının müdiri olarkən məhz onun ətrafında qurulmuşdur. Söhbət vətənpərvər, qeyrətli, ziyalı Vətən oğullarından gedir. Əsərdə Nəzərin timsalında zəhmətkeş insan, sakit və ağır təbiətə malik, təmiz vicdanlı ata və vətənpərvər ziyalı obrazı yaradılmışdır.

Onun hekayələrinin süjeti, yəqin ki, elə öz həyatından götürülmüşdür. Çünki nəsr əsərlərinin əksəriyyətini ömrü mübarizələrdə keçmiş bir Azərbaycan türkünün (məhz elə Əli Tudənin) həyat tarixçəsi adlandırmaq daha düzgün olardı.

Əsərlərində xalq ruhundan bəhrələnən, sadə danışıq leksikonundan tez-tez istifadə edib onu bədii dilə uyğunlaşdırmağa çalışan və buna müvəffəq olan Əli Tudə, hər şeydən öncə, doğma Vətən torpağını, onun çaylarını, daşlarını, çəmənliklərini, yaylağını, dağlarını, bulaqlarını uşaq səmimiyyətilə sevən, bu yurdun gözəlliklərinə, onun insanlarına qəlbən vurulan ədəbiyyat fədaisi olmuş, hisslərini bədii təsvirlərlə qələmə almışdır.





İranda milli-azadlıq hərəkatı şah qüvvələri tərəfindən boğulandan, Seyid Cəfər Pişəvərinin yaratdığı Milli Hökumət dağıdılandan (1946) sonra Əli Tudə yenidən mühacirət edir, Bakıya dönür. Məhz bundan sonra onun həyatının yeni – Bakı mərhələsi başlayır.

***

Poeziyasında Vətən və ayrılıq motivləri üstünlük təşkil edən Əli Tudə həm də Azərbaycan təbiətinin əsrarəngiz gözəlliklərini, insanın sevgi duyğularını vəsf edən xeyli sayda əsərlərin müəllifidir. O, ana, Vətən, təbiət, məhəbbət, dostluq, birlik, azadlıq, insanpərvərlik kimi nəcib bəşəri duyğuları bütün əsərlərində nəzərə çarpdırmışdır.

Xalq inqilabının qələbəsini, Milli Hökumətin yaradılmasını ürəkdən alqışlayan ədəbi qəhrəmanın şeirlərində əsasən milli hakimiyyət tərənnüm edilir. Əli Tudə nisgilli şairin doğma ana dilində yazılmış şeirlərini sonradan müxtəlif qəzetlərdə ön sözlə birlikdə çap etdirə bilir.

Canlı həyat, sadə danışıq tərzi, təmiz dil və anlaşıqlı üslub, hamının dərk edə biləcəyi fikir və ifadə, nəhayət, səmimiyyət Əli Tudə əsərlərinin mayasını təşkil edir. Bu əsərlər şifahi xalq ədəbiyyatından, qədim adət və ənənələrimizdən bəhrələnmiş, ən başlıcası isə milli özünüdərk təfəkkürünə söykənən bir xətdən keçmişdir.

Əli Tudənin nəsr əsərləri xarakterik xüsusiyyətləri ilə yaddaşlarda qalır, səmimiyyəti ilə sevilir, tarixiliyi ilə diqqət çəkir. Azərbaycançılıq təfəkkürü ilə yanaşı şərqlilik abhavasının hökm sürdüyü bu əsərlərin ədəbi-bədii qayəsi müasir oxucunu düşünməyə vadar edir, onun mənəvi tələbatını ödəyə bilir.

***

Əli Tudə bədii yaradıcılığında dil məsələlərinə xüsusi fikir vermişdir. O deyirdi: "Hər xalqın mədəniyyət xəzinəsindəki ən qiymətli inci ana dilidir. Bu parlaq inci öz əlvan şəfəqləri ilə xalqın coğrafi, iqtisadi, siyasi həyatının bütün yollarını işıqlandırır. Dil xalqın ən böyük, ən müqəddəs, ən nadir sərvətidir".

Şair xüsusi vurğulayırdı ki, ana dilimizin saflığını qoruyub saxlamalıyıq. O, əsərlərində dilimizi yabançı söz və ifadələrdən qorumağı qarşıya məqsəd kimi qoymuş, demək olar ki, buna tamamilə müvəffəq olmuşdur. Cənubda yaşayan soydaşlarımızın əksəriyyətinin yaradıcılığında yabançı söz və qarışıqlarından geninə-boluna istifadə olunsa da, Əli Tudədə buna, demək olar ki, rast gəlinmir. Təsadüfi deyildir ki, Cənubda nəşr edilən ilk ana dili dərsliyinin müəlliflərindən biri də məhz Əli Tudə olmuşdur. Belə bir dərsliyin işıq üzü görməsini ovaxtkı mütərəqqi Azərbaycan mətbuatı böyük fərəh hissi ilə geniş şəkildə işıqlandırmışdır. Doğrudan da, çox böyük bir tarixi hadisə olan anadilli kitablarımızın nəşr edilməsi, çoxlu sayda qəzet və jurnalların işıq üzü görməsi, dövlət idarələrində doğma dilimizdə olan qanunların işləməsi şah rejiminin Azərbaycandilli məktəbləri bağlamasına, ictimai yerlərdə bu dildə danışmağın belə qadağan edilməsinə tutarlı cavab idi. Şahlıq üsuli-idarəsinin hökmü ilə yaradılan bədnam yasaqların aradan qaldırılması mütərəqqi ideyaların yayılmasına təkan vermişdi. Bu hadisədən ruhlanan Azərbaycanın qeyrətli, təəssübkeş şair və yazıçıları ilhama gəlmiş, könülləri riqqətə gətirən əsərlər yaratmışlar. Bu əsərlərdə minillik tarixi olan ana dilimizin Cənubi Azərbaycanda özünün layiqli yerini tutması alqışlanırdı.

***

Əli Tudə bədii tərcümə ilə də məşğul olmuş, 1962-ci ildə Vilyam Şekspirin, 1963-cü ildə isə Rabindranat Taqorun "Seçilmiş əsərləri"ni dilimizə tərcümə etmişdir. O, müxtəlif illərdə fars şairi Jalənin, gürcü şairi Revaz Marqnaninin, türkmən şairi Ata Atacanovun, qırğız şairi Birikul Alıbayevin şeirlərini də doğma dilimizə çevirib çap etdirmişdir.

Ümumiyyətlə, Əli Tudənin əsərləri özünəməxsus cəhətləri ilə fərqlidir. Dönməz və döyüşkən ruhlu şairin bütün digər əsərlərində olduğu kimi, müxtəlif səpkili poeziya nümunələrinin də lirik "mən"i səmimi və mehriban olduğu qədər məhz mübarizliyi və yolundan dönməzliyi ilə seçilir.

**Ağahüseyn Şükürov**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

Əhməd Ağdamski – 140

# 12 il opera tamaşalarında qadın rollarında...

Bir sıra incəsənət xadimlərimiz kimi, onun da adının əvvəlinə aktyor, opera müğənnisi, pedaqoq və s. təyinedici sözlər yazılır. Ancaq səhnə fəaliyyətinə başladığı dövrü təsəvvürə gətirəndə bu sənətkarın yaradıcılığına və şəxsiyyətinə münasibət bir qədər dəyişir. Bu dəyişiklik, onun Üzeyir Hacıbəylinin xalası olması ilə yox, "qadın obrazlarının məşhur ifaçısı" ifadətəyini ilə əlaqədardır. Bədəlbəylilərin məşhur nümayəndələrindən biri, bu il 140 illiyi tamam olan Əhməd Ağdamski haqqında söz açırıq.



Əhməd Bəşir oğlu Bədəlbəyli (Əhməd Ağdamski) 1884-cü il yanvarın 5-də Ağdam şəhərində ziyalı ailəsində dünyaya göz açıb. İlk təhsilini Ağdamda və Bakıda alıb. Kiçik yaşlarından səhnə sənətinə böyük maraq göstərən Əhməd teatr həvəskarları dərnəyinin, xalq mərasim tamaşalarının fəal iştirakçıları sırasında yer alır. 1910-cu ildə "Nicat" Xeyriyyə Cəmiyyətinin teatr truppasında səhnə fəaliyyətinə başlayır. Teatrda çalışdığı illərdə Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Hüseynağa Hacıbababəyov və başqa sənət fədailəri ilə dostluq edir, əməkdaşlıq qurur.

1908-ci il yanvarın 12-də (yeni təqvimlə 25 yanvar) Bakıdakı Tağıyev teatrında (indiki Akademik Musiqili Teatrın yerində) dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşası göstərilir. Müsəlman Şərqində yaranan ilk opera olan "Leyli və Məcnun"u səhnəyə qoyanda başlıca məsələ Leyli rolunun ifaçısını tapmaq idi. Düzdür, ilk dəfə Leyli rolunun ifaçısı aşpaz şagirdi Əbdürrəhim (Əbdürrəhman) Fərəcov olub. Xalq artisti Hüseynqulu Sarabski "Bir aktyorun xatirələri" kitabında bu barədə yazırdı: "...Amma Leyli tapılmadı. O yan-bu yanı axtardıqdan sonra bizə bir aşpaz şagirdi rast gəldi, familiyası Fərəcov, adı Əbdürrəhim idi. Buna çox yalvarandan sonra Leyli rolunu oynamağa razı oldu, bir şərtlə ki, heç kəs onun Leylini oynadığını bilməsin... Oyunun belə müvəffəqiyyətlə keçməsindən sonra ürəklənib təkrar etmək istədik. Leyli rolunu oynayan Fərəcovun yanına getdik, dedi "Mən bir də qələt edərəm oynayaram!" Çox danışıqdan sonra birtəhər onu razı elədim. Amma yenə şərt bağladı ki, o rəngi, yağı üzünə sürtməyəcək. Odur ki, qadın məsələsi çox çətin idi. Biz də təkrar oynamalı idik. Nə eləyək, nə eləyək bizə Əhməd Bədəlbəyovun yaxşı səsi olmasını dedilər. Gedib onu tapıb razı elədik...".

Üzeyir Hacıbəylinin anası Şirin xanımla Əhməd Bədəlbəylinin anası Əzizə xanım doğma bacı idilər. Üzeyir bəy xalası oğluna üz tutur. O zaman onun ən böyük arzusu müəllim olmaq idi, lakin teatra olan məhəbbət bu gənci səhnəyə gətirib çıxarır.

Həmin dövrdə Əhməd tələbə idi və tələbələrin teatrda oynamaları bir yana, axşam tamaşalarına baxması üçün belə xüsusi icazə olmalıydı. Belə bir icazə alınır və Əhməd bəy Leylini oynamağa başlayır. Tanınmasın deyə, adını "Miri" yazdırır. Sonralar isə səhnə təxəllüsü olaraq özünə Ağdamski familiyasını götürür.

Dəfələrlə səhnədən düşməyən "Leyli və Məcnun" operasında baş rolları canlandıranların ifasını "Kaspi" qəzetinin 1916-cı il 22 dekabr tarixli sayında yazılırdı: "Leyli rolunda ölüm səhnəsini xüsusi ilhamla oynayan Ağdamski Sarabskiyə çox gözəl tərəf-müqabil idi".

Onun çıxışı Üzeyir Hacıbəylinin xoşuna gəlir və sonralar o, bəstəkarın əsərlərində baş rolların ifaçısına çevrilir. Əhməd Ağdamski qadın rollarını elə məharətlə ifa edirdi ki, hətta tamaşadan sonra qadın kimi ona çiçək göndərənlər də az olmurdu. Canlandırdığı qadın obrazlarının hamısı xarakter etibarilə bir-birindən fərqlənirdi. Tək oyun tərzi yox, hətta səsi də dəyişilirdi. Bu da aktyorun yüksək sənətkarlıq imkanları ilə bağlı idi. O, düz 12 il səhnəyə qadın qiyafəsində çıxıb. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm"də Əsli, "O olmasın, bu olsun"da Gülnaz, "Arşın mal alan"da Gülçöhrə, "Ər və arvad"da Minnət, "Rüstəm və Söhrab"da Təhminə, "Şah Abbas və Xurşidbanu"da kəndli qızı və s. onun əsas rolları kimi milli opera salnaməmizə yazılıb. Aktyor hətta 1917-ci ildə lentə alınan "Arşın mal alan" filminə çəkilərək Gülçöhrə rolunu canlandırıb.

Aktyorun oğlu, kimya elmləri doktoru, professor Telman Ağdamski müsahibələrinin birində deyib: "O dövrdə sənətkarlara böyük hörmət göstərirdilər və vaxtaşırı onların benefisləri, ad günləri keçirilirmiş. Atam da öz ad günlərində iki dəfə – 1916 və 1919-cu illərdə səhnəyə kişi rolunda çıxıb: birinci dəfə "Arşın mal alan"dakı Əsgər bəy, ikinci dəfə isə "Əsli və Kərəm" operasında Kərəm rolunda".

Əhməd Ağdamski 1920-ci illərin əvvəllərində Ağdama qayıdaraq orada yaşamağa başlayır. 1923-cü ildə şəhərdə teatr truppası yaradır, bir çox tamaşaların rejissoru olur, musiqili əsərlərlə yanaşı, dram əsərlərində də bir müğənni-aktyor kimi çıxış edir. 1934-cü ildən ömrünün sonunadək, 20 il Ağdaş şəhər Musiqi məktəbində pedaqoji fəaliyyətlə məşğul olur. Məktəbdə tar müəllimi və direktor vəzifələrində çalışan sənətkarın məşhur tələbələrindən biri də görkəmli kamança ifaçısı, mərhum Xalq artisti Habil Əliyev idi. Ağdaşa köçəndə ailə əvvəlcə Habil Əliyevin atası Mustafa kişinin evində məskunlaşır. Habil Əliyevi də musiqiyə həvəsləndirən Əhməd Ağdamski olur. Telman Ağdamski bu barədə deyib: "Atam onu əvvəlcə tar sinfinə qoyub, lakin Habil müəllim uşaqlıqda zəif olduğu üçün tarı saxlamağa gücü çatmırmış, ona görə də sonradan atam onu kamança sinfinə keçirib. Bizim evə Azərbaycanın böyük sənətkarları tez-tez qonaq gəlirdilər. Misal üçün, mən korifey sənətkarlarımızdan Seyid Şuşinskinin, Yavər Kələntərlinin, Əfrasiyab Bədəlbəylinin adlarını çəkə bilərəm. Həmin mühit Habil Əliyevin sənətkar kimi yetişməsində böyük rol oynayıb".



Əhməd Ağdamski 1943-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 1954-cü il aprelin 1-də Ağdaş rayonunda vəfat edib.

2017-ci ildə nasir, publisist Mustafa Çəmənlinin Əhməd Ağdamskinin ömür yolundan bəhs edən "Səhnə fədaisi" adlı sənədli povesti çapdan çıxıb.

**Hazırladı: Nurəddin**

# Ağ-qara fotolarla tarixə səyahət



*əvvəli səh. 1-də*

Yermakovun çəkdiyi və topladığı şəkillər Avropa ölkələrindəki müxtəlif kolleksiyalarda mövcud olsa da, onun ən böyük arxivi Gürcüstan Milli Muzeyində yerləşir. Gürcü hökuməti 1919-cu ildə kolleksiyanı onun varislərindən satın alıb.

Kitab-albomun nəşri ideyasını dəstəkləyən Gürcüstan Milli Muzeyinin rəhbəri professor David Lordkipanidze deyib: "Bu kolleksiya illər ərzində toplanıb və bizim üçün təkcə muzey eksponatı kimi vacib deyil. Onların köməyi ilə bir dövrün "təsviri" baxımından çox şey öyrənmək olar. Onlar təkcə tarixçilər, etnoqraflar və digər mütəxəssislər üçün mühüm deyil, keçmişin incəliklərinə maraq göstərən hər kəs üçün maraqlıdır. Mən də istisna deyiləm. Bu fotoşəkillərdən müxtəlif sərgilər və elmi işlər üçün istifadə edirəm. Bu kolleksiya Gürcüstan Milli Muzeyinin ən mühüm sərvətlərindən biridir. Belə bir kitab-albomun nəşri həmçinin Gürcüstanla Azərbaycan arasında əlaqələrin davamı, həmrəylik hissimizin rəmzidir".

Azərbaycanda çəkilmiş fotoşəkillər qəsəbələri, küçələri, kənd təsərrüfatı sahələrini, balıqçı vətəgələrini əks etdirir. Bu, Yermakovun dəfələrlə Bakıda və digər bölgələrdə olmasından xəbər verir.

Səbuhi Əhmədov bildirir ki, Dmitri Yermakovun fotoşəkilləri daha bir cəhətdən dəyərlidir: "Onlarda dövrümüzə qədər gəlib çatmamış bir sıra abidələr var. Məsələn, bu materiallarda XX əsrin 20-30-cu illərində – sovet dövründə dinə qarşı mübarizə mərhələsində dağıdılmış dini abidələrin çoxlu şəkilləri var. Sonra belə tikililər – məscidlər, məqbərələr, kilsələr, ibadətgahlar nəinki zərər gördü, onların bir çoxu məqsədli şəkildə dağıdıldı. Bu gün biz bu tikililərin necə gözəl olduğunu görə bilirik".

Bakıda çəkilmiş fotoşəkillər əsasən neft mədənləri, Qız qalası və mərkəzi küçələri əks etdirir.

Yermakovun 1902-ci il zəlzələsindən dərhal sonra Şamaxıda çəkdiyi fotoşəkillər fəlakət zamanı şəhərin vəziyyəti haqqında məlumat almağa kömək edir. Rəsmi tapşırıqla təbii fəlakət yerinə göndərilən Yermakov zəlzələnin nəticələrinin – əhalinin vəziyyətinin, yardım komitəsinin, xeyriyyə təşkilatlarının və xilasedicilərin fəaliyyətinin fotoşəkillərini çəkib. Beləliklə, həmin dəhşətli təbiət hadisəsi ilə əlaqəli bütün proses vizual olaraq sənədləşdirilib.

Maraqlı silsilələr etnoqrafik xarakter daşıyır ki, burada ipək istehsalı dəqiqliklə və addım-addım təsvir edilir, sırf texnoloji və yüksək peşəkarlıqla lentə alınır. Halbuki, baramaların isladılması, ondan sapların açılması prosesindən silsilə hazırlanarkən, hazır kəlağayının üzərinə qəlib qoyulan son ana qədər baş verənlərin əks edilməsi fotoqraflar üçün nadir yanaşmadır.



Rus fotoqraf tərəfindən Qubanın Cek kəndində 1880-ci ildə çəkdiyi şəkil, Tiflisdəki Azərbaycan xalçaları bazarının fotosu və s. nümunələr də tarixi-etnoqrafik baxımdan qiymətlidir.

Qeyd edək ki, 260-dan çox unikal fotoşəkil əsasında Azərbaycan və ingilis dillərində tərtib olunmuş kitab-albomda Azərbaycanın Ağdaş, Bakı, Gəncə, Lənkəran, Şamaxı, Şuşa, Şəki şəhərləri, dəmir yolu vağzalları, memarlıq abidələri, sənaye və kənd təsərrüfatı obyektləri öz əksini tapıb.

Dmitri Yermakov fotoqrafiya tarixinə təkcə peşəkar fotoqraf kimi deyil, həm də böyük fotostudiyalardan birinin yaradıcısı, ən əsası, fotobankı yaratmağa başlayan bir insan kimi daxil olub. O, həmçinin fotoqrafiyanı bir növ biznesə çevirib, digər fotoqraflardan fotoşəkillər alıb, onları toplayıb, tematik qaydada qruplaşdırıb, ən başlıcası isə kataloq sistemi ilə təsnif edib. Bunun nəticəsidir ki, bu gün bizim əlimizdə Qafqaz mənzərələrinin 25 min fotoşəkildən ibarət çox müfəssəl kolleksiyası var. Bu kolleksiyada XIX əsrin sonundan XX əsrin əvvəllərinə qədər olan Azərbaycan mənzərələri əksini tapıb. Burada təkcə sənaye bumu və onun doğurduğu bütün nəticələr deyil, həm də o dövrdə meydana çıxan nəqliyyat vasitələri – gəmilər, buxar lokomotivləri, paroxodlar, yeni dəmir yolu, neft yataqları var. Lakin həmin dövrdə adi hal kimi qəbul edilənlər belə etnoqraf kimi Yermakovun özü üçün də maraqlı idi. Bu, Qafqazda yaşayan müxtəlif etnik qruplara məxsus insanların həyatı, evlərinin interyeri, geyimləridir. Redaksiya heyətinin qeyd etdiyi kimi, şübhəsiz ki, təqdim olunan materiallar tədqiqatçıların və alimlərin diqqətini cəlb edəcək.

# Rusəsilli, Azərbaycan ruhlu rəssam

Təsviri sənət tariximizdə iz qoymuş sənətkarlardan biri də Əməkdar rəssam Gennadi Brijatyuk olub. Sənət aləmində Abşeron rəssamlıq məktəbinin yetirməsi kimi tanınan fırça ustası yaradıcılıq ezamiyyətlərinə o qədər də maraq göstərməsə də, bəzi bir sıra ölkələrdə sənətsevərlərin şəxsi kolleksiyalarını bəzəyir.

Gennadi Demyanoviç Brijatyuk 30 yanvar 1935-ci ildə Gəncə şəhərində hərbçi ailəsində dünyaya göz açıb. Erkən çağlardan təsviri sənətə maraq göstərib. O, orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə qəbul olunur. Çox şıltaq olduğuna və məktəbin qayda-qanunlarına riayət etmədiyinə görə təhsilini səkkiz ilə (1958) başa vurur. Ali təhsil almaq arzusu ilə Moskvaya gedir. Ancaq antirealizm ruhlu mövqeyinə görə imtahana buraxılmır və Azərbaycana qayıdır.

Gennadi yaradıcılıq fəaliyyətinə, xüsusilə, gül təsvirlərini çəkməklə başlayır. O, peyzaj təsvirlərinə geniş yer ayırırdı. Həmin əsərlərin əksəriyyəti Abşeron təbiəti ilə bağlıdır. Onun müxtəlif illərdə çəkdiyi "Bahar", "Yay motivi", "Köhnə şəhər", "Neft mədənlərində", "Qırx pilləkən", "Qırmızı damlı ev" və s. əsərlər sənətsevərlər tərəfindən maraqla qarşılanıb.

Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev rəssamla bağlı araşdırmasında yazır:





"Çağdaş rəngkarlığımızın tanınmış simalarından çoxunun gerçəkliyə, milli bədii-estetik dəyərlərə və rəng plastikasına münasibətlərində "Brijatyuk ruhu" görünməkdədir. Onun çağdaş rəssamlığımızın milli ruhda inkişafına böyük təsiri oldu... Yaradıcılığı boyu əsərlərində özünün dünyaya gerçəkçi-realist baxışının klassik tutumu ilə yanaşı, miniatürsayağı ümumiləşdirmələr sergiləyən və ən nəhayət, onu əhatələyən məkana mücərrədçi gözü ilə baxan Gennadi Brijatyukun estetik saxlancından duyulası milli-şərqli ruhu "süzülməkdə" idi...".

G.Brijatyukun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyi, Rusiya Rəssamlar İttifaqında, habelə ölkəmizlə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə və Almaniyada şəxsi kolleksiyalarda saxlanılır. Rəssamla şəxsi tanışlığı olan fotoqraf Hüseyn Hüseynzadə 40 il ərzində onun 300-dən çox tablosunu əldə edə bilib.

G.Brijatyuk rəssamlıqla yanaşı, poeziyaya da maraq göstərib, şeirlər qələmə alıb. Ancaq əsərlərini nə mətbuatda, nə də kitab şəklində çap etdirməyib. Əməyi yüksək qiymətləndirilən fırça ustası 1992-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülüb.

Rəssam ömrünün son illərini Bakı şəhərində, İstiqlaliyyət və Şeyx Şamil küçələrinin kəsişməsində yerləşən şəxsi emalatxanasında keçirib. Bir sıra ölkələrdən qonaqlar qəbul edib: Tretyakov Qalereyasının (Rusiya), Şotlandiya Kral Qalereyasının nümayəndələri, türk kolleksiyaçı Nahid Kabakçı, Yeni zelandiyalı rəssam Mirey Abraxamsonla görüşüb.

Fransız kinorejissor Jak Deyvis G.Brijatyuk haqqında film çəkib. Professor Ziyadxan Əliyev 2019-cu ildə rəssama həsr etdiyi "Gennadi Brijatyuk və onun mənəvi dəyərlər dünyası" adlı kitabı işıq üzü görüb.

Əsərləri ilə Abşeron rəssamlıq məktəbini zənginləşdirən Gennadi Brijatyuk 11 iyun 2008-ci ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Respublika Uşaq Kitabxanasında Firidun bəy Köçərlinin xatirəsi anılıb



F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Azərbaycanın tənqid və ədəbiyyatşünaslıq elminin ilk peşəkar və görkəmli nümayəndəsi Firidun bəy Köçərlinin (1863–1920) anım günü qeyd olunub.

Kitabxananın direktoru Şəhla Qəmbərova ədəbiyyatşünas alimin ədəbi irsində uşaq və şifahi xalq ədəbiyyatı məsələlərinin tədqiqinin xüsusi yer tutduğunu qeyd edib. Bildirib ki, uşaq ədəbiyyatından nümunələrin toplanması, nəşri və inkişaf etdirilməsinə xüsusi önəm göstərən ədibin 1912-ci ildə özündə uşaq folklor antologiyasını ehtiva edən "Balalara hədiyyə" kitabı nəşr olunub.

"Gəncliyə Yardım Fondu"nun əməkdaşı Qoşqar Abbas Firidun bəy Köçərlinin həyat və yaradıcılığı haqqında geniş məlumat verib.

Çıxışlardan sonra F.Köçərlinin yaradıcılığını özündə əks etdirən videoçarxlar və "Elektron məlumat bazası" təqdim edilib. Materiallar 1911-ci ildən başlayaraq 2023–cü ilə qədər olan zamanı əhatə edir. Bazaya ümumilikdə 275 adda kitab və məqalədən ibarət material, foto və sənədli filmlər daxildir.

# Adı "kiçik", ömrü qısa, çiləsi çox...

Xalq təqviminə görə, yanvarın 31-dən Azərbaycanda Kiçik çillə başlayıb. Kiçik çillə fevralın 19-dək davam edəcək. Fevralın 20-dən martın 20-dək isə Boz ay olacaq.

İnanca görə, iyirmi gün davam etməsinə, yəni ömrünün az olmasına baxmayaraq, Kiçik çillə günlərində hava daha sərt, şaxtalı, boranlı-qarlı olur. Məhz elə buna görə də Kiçik çilləyə xalq arasında "qışın oğlan çağı" da deyilir.

AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi Əpoş Vəliyev bildirir ki, xalq arasında çillələr və Boz ayla bağlı bir sıra rəvayətlər mövcuddur. Onlardan birində deyilir ki, Böyük çillə 40 günlük dövranını sürüb gedir. Yolda Kiçik çillə ilə rastlaşır. Kiçik çillə ondan soruşur:

– Bu qırx gündə nə gördün, neylədin?

Böyük çillə deyir:

– Mən dolu qazanlar üstə gəlmişdim. Sonra təndirləri yandırtdım, kürsüləri qurdurdum, küplərin, çuvalların ağızlarını açdırdım.

Kiçik çillə istehza ilə gülüb cavab verir:

– Eh, sən heç nə eləməmisən ki. Mən gör indi nələr eləyəcəyəm, nə tufan qoparacağam. Qazanları ağzı üstə çevirəcəyəm, qarıları təndirin ağzından salıb külfədən çıxaracağam, küpləri, xaralları boşaldacağam, bütün azuqələri tükəndirib, gedəcəyəm.

Onun coşduğunu görən Böyük çillə deyir:

– Çox da öyünmə. Mən qırx günlük ömrümlə bir iş görə bilmədim. Sənin isə iyirmi günlük ömrün var. Bu iyirmi gündə heç nə edə bilməzsən. Çünki qabağın yazdır, ömrün də azdır.

Bu zaman Boz ay onlara deyir:

– Siz məni uzaqda görmüsünüz, hə, "asaram-kəsərəm" deyirsiniz. Görün mən gedib nələr eləyəcəyəm. Buzları əridəcəyəm, torpağın donunu açacağam, əkinləri, çölləri, yamacları, ağacları cücərdəcəyəm. Bağ-bağçalarda gül-çiçək açdıracağam, kürsüləri sökdürəcəyəm.

Böyük çillədə olduğu kimi, Kiçik çillədə də bayram keçirilir. Ona el arasında "Xıdır" və yaxud "Xıdır Nəbi" bayramı deyilir. Bu bayram "qışın oğlan çağında", Kiçik çillənin onuncu günü, Novruz bayramından altı həftə qabaq qeyd edilir. Yəni insanlar Kiçik çillənin yarı olduğuna sevindikləri üçün bir sıra ayinlər icra edirlər.

Xalq düşüncəsinə görə, Xıdır Nəbi bərəkət rəmzidir. Ona görə də evlərdə buğda qovrulur, üyüdülüb qovut hazırlanır. Həmin gün süfrələrə cürbəcür çərəzlər qoyulur.

**F.Yunisli**

## Xatirə təqvimi — 31 yanvar – 3 fevral

### Azərbaycan

**31 yanvar 1879** – Tanınmış satirik şair Səməd Mənsur (Səməd Hacı Əhməd oğlu Kazımov; 1879 – 3.1.1927) Bakının Əmircan kəndində doğulub. "Molla Nəsrəddin", "Şeypur" və s. jurnallarda şeirləri dərc edilib. "Səfa" cəmiyyətinin yaradıcısı olub, cəmiyyətin nəzdindəki teatr üçün pyeslər yazıb, tərcümələr edib.

**31 yanvar 1884** – Görkəmli ictimai-siyasi xadim, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884 - 6.3.1955) Bakının Novxanı kəndində doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banisidir, Cümhuriyyətin süqutundan sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib, jurnal və qəzetlər nəşr etdirib. "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi" və s. əsərlərin müəllifidir. Məzarı Ankaradadır.

**31 yanvar 1903** – Əməkdar rəssam, tanınmış boyakar və qrafik Ələkbər Ələsgər oğlu Rzaquliyev (1903 – 31.1.1974) Bakıda anadan olub. "Köhnə Bakı" silsiləsi, "M.Ə.Sabir", "Çaybecərənlər" və s. linoqravüraların müəllifidir. 30-40-cı illərdə repressiyaya məruz qalıb, həbs və sürgün edilib.

**31 yanvar 1915** – Xalq artisti Vera Karlovna Şirye (1915 – 5.5.2003) Bakıda anadan olub. 1933-cü ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub, "İstiqlal" ordeni (2000) ilə təltif olunub.

**31 yanvar 1918** – Xalq artisti Konstantin Nikolayeviç Bataşov (1918–1991) Tiflisdə doğulub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**31 yanvar 1924** – Əməkdar incəsənət xadimi, görkəmli şair Əli Tudə (Əli Əliqulu oğlu Cavadzadə; 1924 – 26.2.1996) Bakıda doğulub. 1940-cı illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatının öncüllərindən olub.

**31 yanvar 1963** – Azərbaycan teatr və kino sənətinin müqtədir aktyoru, SSRİ Xalq artisti Ələsgər Hacıağa oğlu Ələkbərov (26.3.1910 – 1963) vəfat edib. 1933-cü ildən Akademik Milli Dram Teatrında fəaliyyət göstərib, Filmlərdə ("Fətəli xan", "Böyük dayaq" və s.) unudulmaz obrazlar yaradıb.

**31 yanvar 2008** – Prezident İlham Əliyev UNESCO-nun yubileylər proqramına (2008-2009) daxil edilmiş "Leyli və Məcnun" operasının, Xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin, akademik Musa Əliyevin 100 illik yubileylərinin keçirilməsi, həmçinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyinin qeyd edilməsi haqqında sərəncamlar imzalayıb.

**31 yanvar 2020** – Prezident İlham Əliyev Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi haqqında sərəncam imzalayıb.

**1 fevral 1935** – Yazıçı-publisist Nazim Sadiq oğlu İbrahimov (1935 – 1.9.2019) Bakıda doğulub. Poliqrafiya və Kitab Ticarəti Komitəsinin sədri, "Azərbaycan" nəşriyyatının baş direktoru işləyib. Yazıçılar Birliyinin sədr müavini olub.

**1 fevral 1948** – Əməkdar artist Əli Fərman oğlu Allahverdiyev (1948 – 15.6.2010) Samux rayonunda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**1 fevral 2003** – Prezident İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" sərəncam imzalayıb.

**1 fevral 2004** – Xalq artisti, rejissor, aktyor Lütfi Şahbaz oğlu Məmmədbəyov (6.2.1927 - 2004) vəfat edib. Televiziya tamaşalarına quruluş verib. "Qızmar günəş altında", "Səhər", "Sehrli xalat" və s. filmlərdə çəkilib.

**1 fevral 2023** – Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Tərlan Əşrəf oğlu Seyidov (19.1.1943 – 2023) vəfat edib. BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının direktoru olub.

**2 fevral 1912** – Xalq artisti, rejissor, Dövlət mükafatı laureatı Məhərrəm Kazım oğlu Haşımov (1912 – 2.5.1969) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında, Rus Dram Teatrında baş rejissor işləyib. "Azərbaycanfilm" kinostudiyasının direktoru (1960-1965) olub.

**2 fevral 1932** – Dilçi alim, akademik Ağamusa Ağası oğlu Axundov (1932 – 5.9.2015) Kürdəmirdə doğulub.

**2 fevral 1936** – Əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Rza oğlu Məmmədov (1936–2006) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında bir çox tamaşalara musiqi yazıb.

**2 fevral 1940** – Əməkdar memar Feyzulla Ağasəfər oğlu Quliyev (1940 – 7.8.2023) Salyan rayonunun Arbatan kəndində doğulub.

**2 fevral 1942** – Əməkdar mədəniyyət işçisi, aşıq Yanvar Piralı oğlu Bədəlov (1942 – 27.12.2018) İsmayıllı rayonunun Tircan kəndində doğulub.

**2 fevral 1955** – Əməkdar artist Muxtar Şahmar oğlu İbadov (1955 – 23.9.2013) Balakən rayonunda doğulub. Şəki Dram, Dövlət Gənclər teatrlarının aktyoru olub, filmlərə çəkilib.

**2 fevral 1983** – Xalq yazıçısı Əli Qara oğlu Vəliyev (27.2.1901 – 1983) vəfat edib. "Qarlı dağlar", "Anaqız", "Ötən günlər" və s. kitabların müəllifidir.

**3 fevral 1891** – İctimai xadim, jurnalist, tərcüməçi Ceyhun bəy Əbdülhüseyn oğlu Hacıbəyli (1891 – 22.10.1962) anadan olub. Dahi bəstəkar Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin redaktoru olub. Sonra mühacirətə gedib, Fransada yaşayıb və orada vəfat edib. Məzarı Parisdədir.

**3 fevral 1951** – Əməkdar artist Həsənağa Hüseynəli oğlu Hüseynov (1951–2002) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub, teatrda truppa müdiri işləyib.

**3 fevral 1959** – Əməkdar artist Mərdan Əhmədiyyə oğlu Feyzullayev (1959 – 13.8.2017) Şəki rayonunun Kiş kəndində doğulub. Şəki Dram Teatrının baş rejissoru olub. 1994-cü ildən Moskvada yaşayıb, özünün yaratdığı "Dərviş" teatrında Azərbaycan müəlliflərinin əsərlərini tamaşaya qoyub.

**3 fevral 1962** – Xalq artisti, aktyor, rejissor Səməd Məmməd oğlu Mövləvi (20.2.1900 – 1962) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**3 fevral 1990** – Görkəmli aktyor Hamlet Xanızadə (5.6.1941 – 1990) vəfat edib. Kinoda, televiziya və teatr tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**3 fevral 2014** – Prezident İlham Əliyev böyük şair və maarifçi Mirzə Şəfi Vazehin 220 illik yubileyi haqqında sərəncam imzalayıb.

**3 fevral 2022** – Əməkdar mədəniyyət işçisi, kino və televiziya operatoru Nəriman Səttar oğlu Şıxəliyev (14.10.1934 – 2022) vəfat edib.

### Dünya

**31 yanvar 1797** – Avstriya bəstəkarı Frans Şubert (Franz Peter Schubert; 1797-1828) anadan olub. "Alfonso və Estrella" operası, simfoniya, mahnı və romansların müəllifidir.

**31 yanvar 1921** – Amerika opera müğənnisi, aktyor Mario Lansa (Mario Lanza – əsl adı Alfredo Arnoldo Cocozza; 1921-1959) anadan olub.

**31 yanvar 1924** – Gürcü kinorejissoru, SSRİ Xalq artisti Tengiz Abuladze (1924–1994) anadan olub. Filmləri: "Mən, nənəm, İliko və İllarion", "Arzu ağacı", "Tövbə" və s.

**31 yanvar 1935** – Yapon yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1994) Kendzaburo Oe (1935 – 13.3.2023) anadan olub. Əsərləri: "Şəxsi təcrübə", "Müasirlərin oyunu", "Həyatın qohumları", "İkiyüzyaşlı uşaq" və s.

**31 yanvar 1937** – Litva aktyoru, SSRİ Xalq artisti Reqimantas Adomaytis (Regimantas Adomaitis; 1937 – 20.6.2022) anadan olub. Filmləri: "Bu şirin söz – azadlıq", "Həyat gözəldir", "İlğım" və s.

**1 fevral 1895** – Amerika kinorejissoru Con Ford (John Ford – John Martin Feeney; 1895-1973) anadan olub. 4 dəfə "Oskar" mükafatına layiq görülüb.

**1 fevral 1999** – Məşhur türk musiqiçisi, bəstəkar Barış Manço (2.1.1943 – 1999) vəfat edib. Türkiyədə rok musiqisinin öncüllərindən biridir. Hazırladığı televiziya proqramları ilə bir çox ölkələrdə səfərdə olub.

**2 fevral 1595** – Niderland rəssamı, klassisizmin tanınmış nümayəndəsi Yakob van Kampen (Jacob van Campen; 1595-1657) anadan olub.

**2 fevral 1873** – Avstriya bəstəkarı Leo Fall (1873-1925) anadan olub. "Madam Pompadur", "Dollar şahzadəsi" və s. operettaların müəllifidir.

**2 fevral 1882** – İrland yazıçısı və şairi, modernizmin nümayəndəsi Ceyms Coys (James Augustine Aloysius Joyce; 1882-1941) anadan olub.

**3 fevral 1809** – Alman bəstəkarı, dirijor Feliks Mendelson (Jakob Ludwig Felix Mendelssohn Bartholdy; 1809 – 4.11.1847) anadan olub. "Toy" marşının müəllifidir.

**3 fevral 1881** – Rus kinematoqrafının banilərindən biri, rejissor Yakov Akeksandroviç Protazonov (1881-1945) anadan olub.

**Hazırladı: V.Orxan**

№8 (2073)
31 yanvar 2024
www.medeniyyet.az

# Ölkəmiz Qahirə Beynəlxalq Kitab Sərgisində təmsil olunur

24 yanvar – 6 fevral tarixlərində Misir Ərəb Respublikasının Qahirə şəhərində 55-ci Beynəlxalq Kitab Sərgisi keçirilir.

"Bilik yaradırıq, sözü qoruyuruq!" şüarı altında keçirilən builki sərgiyə 70 ölkə qatılıb. Sərginin fəxri qonaq ölkəsi Norveçdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Misir Ərəb Respublikasındakı səfirliyimizin dəstəyi ilə ölkəmiz də sərgidə təmsil olunur.

Milli stenddə Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı və müasir inkişafı ilə bağlı nəşrlər nümayiş olunur. Ziyarətçilərə ölkəmiz, o cümlədən bu il ICESCO tərəfindən 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhəri haqqında məlumat verilir.




Mədəniyyət Nazirliyinin əməkdaşları və şair, yazıçı Aqşin Yeniseyin yer aldığı heyət sərgi çərçivəsində bir sıra tədbirlərə də qatılıblar.

Tanınmış yazıçı Rövşən Abdullaoğlunun psixoloji-detektiv janrda qələmə aldığı "Abaddon" romanı da ərəb dilində Qahirə sərgisində oxuculara təqdim olunub. Kitab Misirdə "Jusur Publishing" nəşriyyatında işıq üzü görüb. Roman Azərbaycanda ilk dəfə 2018-ci ildə çap edilib. Daha sonra rus və ingilis dillərində nəşr olunub.

# Blokadadan 80 il sonra



Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi – RİMM) İkinci Dünya müharibəsində Leninqrad (indiki Sankt-Peterburq) şəhərinin blokadadan çıxmasının 80 illiyinə həsr olunmuş sənədli filmlər nümayiş olunub.

Leninqradın alman faşist qoşunları tərəfindən mühasirəsi 1941-ci ilin 8 sentyabrından 1944-cü ilin 27 yanvarınadək davam edib.

"Ladoqa" və "Klooqa – ölüm düşərgəsi" sənədli filmləri Sankt-Peterburq Xarici Əlaqələr Komitəsi tərəfindən təqdim edilib.

RİMM-dən bildirilib ki, "Ladoqa" filmi "Həyat yolu"ndan (Leninqradın blokadası zamanı Ladoqa gölündən keçən yeganə nəqliyyat marşrutu) və 1942-ci il oktyabrın 22-də Suxo adası yaxınlığında baş verən döyüşdən bəhs edir.

"Klooqa – ölüm düşərgəsi" filmi isə Tallinin 36 kilometrliyində yerləşən eyniadlı qəsəbədəki toplama düşərgəsində faşistlərin törətdikləri vəhşiliklər haqqındadır. Bu ekran əsərində yer alan kadrlar faşist liderlərinin mühakimə olunduğu Nürnberq prosesində (1946) ittiham sənədləri qismində istifadə edilib.

Sovet qoşunları Leninqradın blokadasını 1943-cü ilin yanvarında qismən, 1944-cü il yanvarın 27-də isə tamamilə yara biliblər. 872 gün sürən blokada zamanı şəhərdə 600 mindən çox insan aclıq, soyuq və xəstəlikdən ölmüşdü.

# Türkiyə kosmik gəmi istehsal etməyi planlaşdırır

Yaxın illərdə öz kosmik gəmimizin istehsalına başlayacağıq. Prezident Rəcəb Tayyib Ərdoğan bunu gənclərlə görüşdə deyib.




"İlk astronavtımızı kosmosa göndərmək yeni nəsil hazırlamaq üçün ilk addımımız idi. Ümid edirəm ki, raketimizi kosmosda görəcəyik. İnşallah, yaxın illərdə öz kosmik gəmimizin istehsalına başlayacağıq", – deyə Ərdoğan bildirib.

Xatırladaq ki, ilk türk astronavt Alper Gezeravcı yanvarın 19-da "SpaceX" şirkətinin "Dragon" kosmik gəmisində kosmosa yola salınıb. "Ax-3" heyəti tərkibində Beynəlxalq Kosmik Stansiyada olan Gezeravcının ikihəftəlik səyahətdən sonra fevralın 2-də Yerə qayıdacağı gözlənilir.

Ərdoğan Türkiyənin ikinci təyyarədaşıyıcı hərbi gəmisinin inşası planlarını da açıqlayıb: "Biz 2002-ci ildə hakimiyyətə gələndə Türkiyənin özünün müdafiə sənayesindəki payı cəmi 20 faiz idi. İndi 80 faiz təchizat səviyyəsinə çatmışıq və bunu 100 faizə çatdırmaq niyyətindəyik. Əgər hərbi cəhətdən zəifsənsə, tərk edilmişsən. İndi biz ikinci təyyarədaşıyan gəmimizi öz tərsanəmizdə tikəcəyik".

# İnsanı çiplə idarə edəcəklər...

Amerikalı sahibkar İlon Maskın neyrotexnologiya şirkəti "Neuralink" ilk dəfə insan beyninə çip yerləşdirib.



"Dünən (29 yanvar – red.) ilk şəxsə "Neuralink" çipi qoyuldu, əməliyyatdan sonra sağalma yaxşı gedir", – deyə İlon Mask "X" sosial səhifəsində paylaşım edib.

Mask əlavə edib ki, "Neuralink"in ilk məhsulu "Telepatiya" adlanır. O, insana düşüncə gücü ilə telefonu və kompüteri idarə etməyə imkan verəcək.

"İlk istifadəçilər bədən üzvlərinə nəzarəti itirmiş insanlar olacaq. Təsəvvür edin ki, Stiven Hokinq (1942–2018; ingiltərəli məşhur fizik-nəzəriyyəçi, 20 yaşında iflic olmuş, 1985-ci ildə boğazından keçirdiyi əməliyyatdan sonra danışıq qabiliyyətini itirmiş, xüsusi nitq sintezatoru vasitəsilə ünsiyyətə davam etmişdi – red.) sürətli makinaçıdan və ya auksionçudan daha tez özünü ifadə edə bilir. Məqsəd budur", – deyə o əlavə edib.

"Neuralink" startapı 2016-cı ilin iyulunda Mask tərəfindən yaradılıb və nəticədə insan beyninə implantasiya oluna biləcək çiplər hazırlayır. Biznesmen hesab edir ki, bu cür neyron interfeyslər insanlara düşüncə gücündən istifadə edərək kompüteri birbaşa idarə etməyi öyrənməyə yardımçı olacaq.

# "Mosfilm"in "qızıl" onluğu

Aleksandr Serovun "Uğur centlmenləri" və Leonid Qaydayın "Brilyant əl", "I" əməliyyatı və Şurikin başqa macəraları" filmləri "Mosfilm" kinostudiyasında çəkilən ən yaxşı filmlər elan edilib. Bu barədə yanvarın 30-da 100 illiyi tamam olan "Mosfilm"dən bildiriblər.



Yubiley münasibətilə "Mosfilm. Qızıl kolleksiya" telekanalının redaksiyası aparıcı nəşrlərin və xidmətlərin tamaşaçı və ekspert rəyləri əsasında sorğu keçirib. Sorğuda lider "Uğur centlmenləri" komediyası olub.

Bu ekran əsərinin ssenari müəllifləri Viktoriya Tokareva və Georgi Daneliyadır. "Uğur centlmenləri" filmi 1972-ci ildə prokat lideri olub, ona 65 milyon insan baxıb.

Studiyanın "qızıl" reytinqində ikinci və üçüncü yerləri Leonid Qaydayın "Brilyant əl" və "I" əməliyyatı və Şurikin başqa macəraları" filmləri tutub. Dördüncü yerdə rejissor Leonid Qaydayın daha bir filmi – "İvan Vasilyeviç peşəsini dəyişir" yer alıb. Ekran əsəri Mixail Bulqakovun "İvan Vasilyeviç" pyesinin motivləri əsasında çəkilib.

Növbəti yeri Vladimir Menşovun "Moskva göz yaşlarına inanmır" filmi tutub. Film 1981-ci ildə "Ən yaxşı xarici film" nominasiyasında "Oskar" mükafatına layiq görülüb.

Siyahıda sonra Leonid Qaydayın daha bir filmi – "Qafqaz əsiri və ya Şurikin yeni macəraları", Mixail Kalatozovun "Durnalar uçur" (1958-ci ildə Kann kinofestivalında "Qızıl palma"ya layiq görülüb) və Sergey Eyzenşteynin "Potyomkin zirehlisi" də yer alıb. Doqquzuncu yerdə Yuri Çulyukinin "Qızlar" və Eldar Ryazanovun "İşdə məhəbbət macərası", onuncu yerdə isə Elem Klimovun "Get və bax" dramatik ekran əsəri qərarlaşıb.

# Rəsm əsərlərinə qənim kəsilənlər yenə "iş başında"

## Bu dəfə "Mona Liza" hədəf seçilib

Parisin Luvr Muzeyində "Mona Liza" portreti bu dəfə "sağlam qida müdafiəçiləri"nin vandal hücumuna məruz qalıb.




Hadisə ilə bağlı yayılan videogörüntülərdə "qida əks-hücum" yazılmış köynək geyinmiş iki qadının Leonardo da Vinçinin dünyaca məşhur rəsm əsərinə şorbanı atması əks olunub. Gülləkeçirməz şüşə arxasında nümayiş olunan əsər heç bir zərər görməyib.

Etirazçılar daha sonra rəsm əsərinin qarşısında dayanaraq "Daha vacib nədir? İncəsənət, yoxsa sağlam və davamlı qida hüququ? Sizin kənd təsərrüfatı sisteminiz xəstədir", – deyə qışqırıblar.

Fransanın mədəniyyət naziri Raçida Dati deyib ki, heç bir səbəb "Mona Liza"nın hədəfə alınmasına haqq qazandıra bilməz.

Qeyd edək ki, iqlim və sağam qida "fəalları" tez-tez bu cür etiraz üsulu ilə gündəmə gəlirlər. Onların əsas istəyi guya bununla aclıq və digər ciddi fəsadlar törədəcək hadisələrə cəmiyyətin və məsul şəxslərin diqqətini çəkməkdir.

2022-ci ildə London Milli Qalereyasında Van Qoqun "Çiçəkləyən şaftalı" tablosunun çərçivəsini zədələyən iki ekoaktivist 21 gün həbs cəzasına məhkum edilmişdi. Ondan əvvəl həmin qalereyada Van Qoqun məşhur "Günəbaxanlar" tablosu da bənzər hücuma məruz qalmışdı. "Just Stop Oil" üzvləri tabloya pomidor şorbası atmışdılar. Xüsusi şüşə ilə mühafizə edilən əsər zərər görməmişdi.

Ekoaktivistlərin Almaniyanın Potsdam şəhərindəki Barberini Muzeyində Klod Monenin, Avstraliyadakı muzeylərin birində Pablo Pikassonun tablolarına da özünəməxsus formada etirazları olmuşdu.

**V.Kamal**

# "Titanik"dən 5 dəfə böyük

## Ən böyük kruiz gəmisi səyahətə başlayıb

Dünyanın ən böyük kruiz gəmisi – "Royal Caribbean International" tərəfindən dizayn edilən "Icon of the Seas" ("Dənizlərin ikonası") yanvarın 28-də Mayami limanından (ABŞ) ilk səyahətinə başlayıb.




Uzunluğu 365 metr olan gəminin su tutumu (ağırlığı) 250 min tondur və bu göstəricisinə görə o, əfsanəvi "Titanik"dən 5 dəfə böyükdür. Nəhəng kruiz gəmisinin 5600 sərnişin və 2350 nəfər ekipaj və xidmət personalı ilə yola çıxdığı bildirilib. Qeyd olunur ki, gəmi tam gücü ilə 7600 sərnişin qəbul edə bilər.

Finlandiyanın Turku şəhərindəki gəmiqayırma zavodunda inşa edilən 20 mərtəbəli gəmidə hündürlüyü 17 metr olan şəlalə, yeddi hovuz, altı su sürüşməsi, buz meydançası, karusel, 40 restoran və bar var. Fəvvarəli konsert zalı da olan "Icon of the Seas" kruiz gəmiləri arasında ən hündür şəlaləsi, ən yüksək su sürüşməsi, ən böyük su parkı ilə seçilir.

Maye qazla (LNG) işləyən gəmi 2023-cü ilin iyununda ilk sınaq gəzintisinə çıxmışdı. "Icon of the Seas" birhəftəlik Karib dənizi turundan sonra Mayami limanına qayıdacaq. Gəmidə mövsümdən asılı olaraq səyahət qiyməti standart kayutlarda adambaşına 2 min dollardan başlayır.

## Xronoqraf

# Tarixdə bu gün



## Olaylar, faktlar (31 yanvar – 3 fevral)

### 176 il əvvəl...

**2 fevral 1848-ci ildə** ABŞ-la Meksika arasındakı müharibə (1846-1848) birincinin qələbəsi ilə yekunlaşıb. Texas, Nyu-Meksika və Yuxarı Kaliforniya üç yeni ştat olaraq ABŞ-yə birləşdirilib.

### 122 il əvvəl...

**31 yanvar 1902-ci ildə** Şamaxı şəhərində güclü zəlzələ böyük dağıntı və tələfat törədib. Şamaxıda və ətraf kəndlərdə 2 mindən çox sakin həlak olmuş, 20 min nəfərədək əhali evsiz qalmışdı. Şamaxıda 1856, 1861 və 1872-ci illərdə də dağıdıcı zəlzələlər baş verib.

### 100 il əvvəl...



**3 fevral (bəzi mənbələrdə 8 fevral) 1924-cü ildə** Bakıda tramvay nəqliyyatı istifadəyə verilib. 1899-cu ildə Bakıda konka (relslər üzərində at qüvvəsi ilə hərəkətə gətirilən açıq vaqon) işləməyə başlamışdı. 1923-cü ildə elektrik tramvay xəttinin çəkilişi başlanır və 1924-cü il fevralın əvvəlində istismara verilir. 2002-ci ildə Bakıda tramvay nəqliyyatı ləğv olundu.

### 94 il əvvəl...

**1 fevral 1930-cu ildə** SSRİ Xalq Komissarları Soveti "Kütləvi kollektivləşmənin sürətləndirilməsi və qolçomaqlarla mübarizə haqqında" qərar qəbul edib. Repressiya maşını işə düşüb. Kolxoz quruculuğuna qarşı çıxanlar ya məhv edilir, ya da sürgünə göndərilirdi.

### 81 il əvvəl...



**2 fevral 1943-cü ildə** II Dünya müharibəsinin ən qanlı savaşı – 1942-ci ilin 17 iyulunda başlamış Stalinqrad döyüşü sovet qoşunlarının qələbəsi ilə başa çatıb. Altı ay sürən döyüşlərdə sovet qoşunları 480 minə, faşist ordu hissələri 500 minədək hərbçi itirmişdi. Döyüş bölgələrində on minlərlə sakin həlak olmuşdu. 90 mindən çox alman hərbçisi, o cümlədən feldmarşal Fridrix Paulus və 24 general əsir götürülmüşdü. Stalinqrad zəfəri müharibədə SSRİ-nin xeyrinə dönüş yaratdı, almanların Qafqazı, o cümlədən Bakını ələ keçirmək planları alt-üst oldu.

### 75 il əvvəl...

**1 fevral 1949-cu ildə** Türkiyənin paytaxtı Ankarada Azərbaycan Kültür Dərnəyi təsis edilib. Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə yaradılan qurum dünyadakı azərbaycanlıların təşkilatlanması sahəsində mühüm addım idi.

### 66 il əvvəl...

**3 fevral 1958-ci ildə** Haaqa (Niderland Krallığı) şəhərində bir araya gələn Belçika, Niderland və Lüksemburq gələcək Avropa Birliyinin özəyi olan "Benilüks" iqtisadi ittifaqının əsasını qoyublar.

### 28 il əvvəl...

**2 fevral 1996-cı ildə** Bakıda Azərbaycan gənclərinin ilk ümumrespublika forumu keçirilib. Forumda Prezident Heydər Əliyev iştirak edib. Bir il sonra (1 fevral 1997-ci il) Prezident Heydər Əliyev həmin əlamətdar hadisəni və dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu nəzərə alaraq 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi barədə sərəncam imzalayıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 271
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641